Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!


DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

31-2

AVQUST-SENTYABR 2019-cu il

№ 153 (4051)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur


## AZƏRBAYCAN DÜNYANIN ƏN GÜCLÜ İXRACATÇI ÖLKƏLƏRİ SIRASINDA - ERMƏNİSTAN VƏ GÜRCÜSTAN SİYAHIDAN ÇIXARILDI

■ səh. 10 ■

Paşinyanın avantürist Qarabağ bəyanatlarının daxilə hesablandığını ruslar da görməyə başlayır

■ səh. 9 ■

Paşinyan əsgər analarını aldatdı, islahat vədini icra etmədi, indi də kriminal avtoritetlərə döyüş vədi verir...

■ səh. 5 ■

Ermənistanın ABŞ və Rusiya arasında ilyarımlıq ikili oyunu tam iflas pilləsinə yetişdi

■ səh. 8 ■

Pullu başsağlıqlarının ləğv olunacağını digər rəsmi qəzetlər necə qarşılayır...

■ səh. 6 ■

Kommersiya banklarının dövlətə qarşı böyük qanunsuzluğu - cırılmış, köhnəlmiş əskinaslar qəbul olunmur...

■ səh. 11 ■

22 sığorta şirkətinin 12-si bərbad gündədir...

■ səh. 11 ■

Bakıda formaca yaraşıqsız yaşayış binası tikintilərinin çoxalması diqqət çəkməyə başladı...

■ səh. 14 ■

"Milli cadugərlərimiz"in sosial şəbəkələrdə "çıxarmadıqları oyun" qalmır

■ səh. 15 ■



■ səh. 5 ■

## Paşinyan öz səfirləri ilə müharibəyə başladı - «Trampla məni görüşdürmədiniz, ölkəyə pul gətirə bilmədiniz...»



Ermənistan baş nazirinin, XİN və müdafiə nazirlərinin üçlü qapalı görüşü - Suriya məsələsi, ABŞ-a yeni güzəştlər barədə ilginc söhbətlər, Rusiyanı necə ovundurmalı...

■ səh. 4 ■

Adı «Azərbaycan Dövlət Nəzarət Təhlükəsizlik Departamenti», ancaq dövlət təşkilatı olmadıqlarını deyir, rəhbərin isə adını çəkmirlər...

■ səh. 12 ■



Fuad Abbasov «Qarabağlılara ev kirayə vermirik» mesajını niyə ictimailəşdirdi...

■ səh. 7 ■

■ səh. 2 ■

Əli Həsənov Əli Kərimlini onun keçmişinə bağlı daha bir faktla vurdu...



■ səh. 4 ■

Avrokomissiyanın yaxın iki ayda Azərbaycanla müqavilə imzalaması üçün səsləndirdiyi maraqlı şərt...



■ səh. 3 ■

Bakı əsas hansı səbəblərdən dünyanın ən təhlükəsiz şəhərləri sırasına düşdü...



■ səh. 3 ■

Rusiyanın bir neçə vilayətinin iş adamlarının Bakıda partnyor axtarışları - məsələnin mahiyyəti...



■ səh. 13 ■

2-ci və 11-ci sinif şagirdlərinin də siniflərə qəbulu elektron qaydaya keçirildi... Nə baş verəcək...





## Azərbaycan XİN İsrail dronlarının guya İraq və İrana hücum üçün Azərbaycana gətirilməsi barədə dezinformasiyaya bir daha münasibət bildirdi...

**Təəssüflə qeyd etmək istərdik ki, bəzi xarici media resurslarında İsrail dronlarının İraq və İrana hücum edilməsi məqsədilə Azərbaycana gətirilməsi ilə bağlı tamamilə əsassız məlumatlar tirajlanmaqda davam edir.**

Bunu baki-xeber.com-a Xarici İşlər Nazirliyinin mətbuat katibi Leyla Abdullayeva deyib.

L.Abdullayeva qeyd edib: "Biz bu məlumatı qətiyyətlə rədd edirik, bu məlumatların heç bir əsası yoxdur və dezinformasiya məqsədi daşıyır".

## Azərbaycanın dövlət müəssisələri kredit borclarının ödənilməsində niyə çətinlik çəkirlər?

**Hesablama Palatası dövlət müəssisələri tərəfindən kredit borclarının ödənilməsinin mümkün olmaması faktları ilə bağlı artım olduğunu qeyd edir.**



"Son illər ərzində dövlət müəssisələri tərəfindən həm dövlət zəmanəti, həm də zəmanətsiz cəlb olunan kreditlər üzrə borcların ödənilməsinin qeyri-mümkün olması faktları tədricən artır. Bu, həmin borcun bu və ya digər halda dövlət büdcəsinin vəsaiti hesabına ödənilməsinə gətirir", - Hesablama Palatasının sədri Vüsal Gülməmmədov yanvar-iyun ayları ərzində dövlət büdcəsinin icrasına dair təhlildə qeyd edib.

O cümlədən, Gülməmmədov vurğulayıb ki, proqnoza (hökumətin - İF) əsasən, 2019-2024-cü illərdə dövlət müəssisələri Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondu vasitəsilə hər təşkilat üzrə həyata keçirilən kredit ödənişləri üzrə dövlət büdcəsinə 2 mlrd. 960,8 mln. manat vəsait qaytarmalıdır.

## Metyu Brayza Paşinyana maraqlı təklif verdi...



**Ermənistanın Baş naziri Nikol Paşinyan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqları davam etdirmək istəsə, ritorikasını dəyişdirməlidir.**

Bunu "Trend"ə ABŞ-ın Azərbaycandakı keçmiş səfiri Metyu Brayza Nikol Paşinyanın son təxribatçı açıqlamalarını şərh edərkən deyib.

M.Brayza bildirib: "Düşünürəm ki, Paşinyana qarşı Ermənistandakı siyasi qüvvələr çox güclüdür. Paşinyan çox çətin bir siyasi vəziyyətə düşdü. Həssas çıxışlar etdi. Geriyə addım atmalı, ritorikanı, bu ifadələri dəyişdirməli, danışıqları davam etdirmək istədiyi təqdirdə danışmalıdır".

**Aydın Quliyev "525-ci qəzet"in baş redaktoru Rəşad Məcidə əzizi Kərəm Səfərovun vəfatı ilə əlaqədar üz vermiş kədərə qəlbən şərik olduğunu bildirir və dərin hüznlə başsağlığı verir.**
**Allah rəhmət eləsin!**

**Esmira xanım, Mələykə xanım, Sabir, Balahüseyn, Azər, İlhamə, Mətanət, Rövşən Babayev Meyxoşa biz qrup dostları adından Kamran və Amalın faciəli vəfatı ilə əlaqədar üz vermiş kədərə qəlbən şərik olur və başsağlığı verirlər.**
**Allah rəhmət eləsin!**

# Əli Həsənov Əli Kərimlini onun keçmişinə bağlı daha bir faktla vurdu...

**Özlərini hakimiyyətə "opponent" hesab edən, siyasi fəaliyyətləri sosial şəbəkələrdə əsassız, qərəzli, şantaj xarakterli iddialar irəli sürməkdən ibarət olan ayrı-ayrı qrup və fərdlər ölkədə ictimai narazılıq formalaşdırmaq üçün ən səviyyəsiz və primitiv üsullara əl atmaqdan belə çəkinmirlər.**

Öncə də qeyd etdiyim kimi, AXCP sədri Əli Kərimli başının dəstəsi ilə birlikdə ölkədə və dünyada baş verən bütün mənfi yüklü halları Azərbaycan hakimiyyətinin və dövlətinin adı ilə bağlamağa cəhd göstərir. Bu mənada, əlində silah foto çəkdirib özünü "fədai" kimi reklam edən birisini hakimiyyətlə əlaqələndirmək də həmin absurd iddiaların davamından başqa bir şey deyil.



"Trend"in məlumatına görə, bu fikirləri Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov özünün "Facebook" səhifəsində yazıb.

Prezidentin köməkçisi bildirib: "Silahlı dəstələr yaratmaq, insanları silahla hədələmək, onların evlərinə basqın etmək, itaət etməyənləri döyüb avtomobilin yük yerinə salmaq və digər bu kimi hüquqazidd əməllər Əli Kərimlinin dövlət müşaviri olduğu AXC-Müsavat hakimiyyətinin üsul-idarəsi üçün xarakterik hallar olub. Bugünkü Azərbaycan hüquqi dövlətdir, burada heç bir cinayətkar cəzasız qalmır, günahı olmayan da cəza almır. Dövlətin hansısa "fədailər qrupu"na və digər bu kimi qeyri-qanuni dəstələrə ehtiyacı yoxdur, onun asayişi yaradan, qanunlara əməl olunmasını təmin edən hüquq-mühafizə sistemi və ədaləti bərpa edən məhkəməsi var. Buna görə də öz siyasi ambisialarını reallaşdırmaq məqsədilə şər-böhtan yaymaq və ictimaiyyəti çaşdırmaq lazım deyil. Belə əməllərə yol verən onun hüquqi məsuliyyətini də dərk etməyi bacarmalıdır.

Əli Kərimliyə xatırlatmaq istərdim ki, əli silahlı şəkil çəkdirib paylaşmaq onun özünün ortaya qoyduğu bir nümunədir. Əgər bu gün kimsə bu "qəhrəmanlığı" təkrarlayırsa, bunun səbəbini hakimiyyətin siyasətində yox, AXCP-nin və onun başçısının əməllərində axtarmaq daha düzgün olar.

O ki qaldı Əli Kərimlinin "özünüzü yığışdırın", "məsuliyyətli olun" tipli hədələrinə, demək istərdim ki, nə o özü, nə də arxalandığı çevrələr Azərbaycan hakimiyyəti ilə təhdid dilində danışa bilməz. Buna görə də həmin ifadələri onun özünə qaytararaq deyirəm: "Əli Kərimli reallıq hissini itirmə!".

# Ermənistan ordusunda özbaşınalıq, rüşvətxorluqla bağlı daha bir fakt... Qeyri-döyüş şəraitində ölən əsgər valideynləri ayağa qalxdı

**Ermənistan silahlı qüvvələrinin daha bir generalı vəzifəsindən kənarlaşdırılıb. İşğalçı ölkənin qeyri-döyüş şəraitində ölən əsgərlərinin valideynləri hökumət binası qarşısında aksiya keçiriblər.**

Baki-xeber.com xəbər verir ki, AZƏRTAC erməni KİV-lərinə istinadən, Ermənistanın işğal olunmuş ərazilərimizdə yerləşdirilmiş 6-cı ordu korpusunun komandir müavini general-mayor Vçislav Valeryanın vəzifəsindən kənarlaşdırıldığını və ona cinayət işi açıldığını yazır.

Onun adı daha çox maliyyə fırıldağında hallanır. İstintaq materiallarında qeyd olunub ki, korpus komandirinin müavini əsgərlərə verilən ərzaq məhsullarının mənimsənilməsində iştirak edib. Bundan başqa, Ermənistan ordusunda komandir



özbaşınalığının, rüşvətxorluğun geniş yayıldığı bildirilir.

Qeyri-döyüş şəraitində ölən əsgərlərin valideynləri etiraz aksiyasında bildiriblər ki, Ermənistan ordusundakı korrupsiya və özbaşınalıq yüksək templə artır. Orduda problemlər dözülməz həddə çatıb. Bu problemlərdən də daha çox cəmiyyətin yoxsul təbəqəsi əziyyət çəkir. Təmas xəttində yoxsul insanların övladları ölür. Əsgərlər komandirlərin və özlərindən rütbəcə yüksək olanların pis davranışları ilə üz-üzə qalırlar. Bütün bunlar sosial müzakirələrin aparılmasını qeyri-mümkün edir.

Hüquq müdafiəçisi Jana Aleksanyan qeyd edib ki, bu yaxınlarda Ermənistan ordusundakı ağır vəziyyətə dözə bilməyən əsgər Arayik Kazaryan ağ bayraq qaldıraraq Dağlıq Qarabağ istiqamətindən Azərbaycan ordusuna təslim olub. O deyib ki, əsgər Kazaryan bir neçə dəfə evə zəng vuraraq hərbi hissədə komandirləri tərəfindən işgəncələrə məruz qaldığını və alçaldıldığını deyib. Bildirilib ki, qeyri-döyüş şəraitində itkilərin artması hərbi hissələrdəki xaosdan xəbər verir. Bunun nəticəsində əsgəri xidmətdən yayınma halları artıb. Cəmiyyətin orduya inamı yoxdur.

# İranın dini lideri Ruhaniyə niyə xəbərdarlıq etdi?

**İran lideri Ayətullah Əli Xameneyinin ofisi ABŞ rəhbərliyi ilə danışıqlara hazır olduğunu bildirdiyinə görə dolayı yolla prezident Həsən Ruhaniyə xəbərdarlıq edib.**

Baki-xeber.com xarici mediaya istinadən xəbər verir ki, Xameneinin ofisi tərəfindən yayımlanan, həftəlik " Hizbullah qaynar xətti" jurnalı yeni sayında prezident Ruhaninin, sanksiyalar ləğv ediləcəyi təqdirdə ABŞ prezidenti Donald Trampla danışıqlar aparmağa hazır olduğuna dair açıqlamasına geniş yer verib.

Dərginin üz qapağında İran lideri Xameneyinin, keçən il avqustun 29-da Nazirlər Kabinetinin üzvlərini qəbul edərkən etdiyi çıxışdan "ABŞ-la danışıqlar qəti qadağandır. Yalnız prezident üçün deyil, xarici işlər naziri və Xarici İşlər Nazirliyi üçün də qadağandır", - sözləri verilib.

Dərginin digər səhifələrində də Xameneyinin ABŞ-la danışıqlar barədə hökumətə xəbərdarlıqları xatırladılıb.

**Bakı yalnız qədimliyinə, inkişafına, tərəqqisinə və gözəlliyinə görə deyil, həm də təhlükəsiz bir məkan olduğuna görə dünyada maraq doğurur. Son zamanlar müxtəlif beynəlxalq analitik mərkəzlərin həyata keçirdiyi "təhlükəsiz ölkə" və "təhlükəsiz şəhər" rəy sorğularında Azərbaycan və Bakı bu sahədə öndə olan məkanlar sırasında qərarlaşır.**

*"Paytaxtımızın top 50-yə daxil olması müsbət hadisədir və bu, turizmin təşkili, Bakıya yeni turizm marşrutlarının yönəldilməsi baxımından çox əhəmiyyətlidir"*

# Bakı əsas hansı səbəblərdən dünyanın ən təhlükəsiz şəhərləri sırasına düşdü...

***Azər Allahverənov:** "Ölkəmizdəki siyasi sabitlik, eləcə də digər amillər Bakının təhlükəsiz şəhərlər sırasına düşməsinə şərait yaradıb"*



Bu günlərdə "The Economist İntelligence Unit" (EİU) analitik mərkəzi ilə "The Economist" dərgisi tərəfindən tərtib edilən illik hesabatdakı reytinqə görə, Bakı dünyanın 2019-cu ildə ən təhlükəsiz şəhərləri reytinqində yer alıb. Bu qurumların illik hesabatdakı reytinqə görə, paytaxt Bakı maksimum 100 xaldan 56,4 xal toplayaraq 49-cu yeri tutub.

Reytinqdə qeydə alınan 60 şəhər rəqəmli təhlükəsizlik, səhiyyə xidmətləri, infrastruktur, fərdi təhlükəsizlik daxil olmaqla 57 müxtəlif göstərici əsasında dəyərləndirilib. Belə ki, Kopenhagen, Dubay, Laqos şəhərləri ilə yanaşı, reytinqə ilk dəfədir qiymətləndirilən Bakı rəqəmli təhlükəsizliklə bağlı siyahıda 51,7 xalla 46-cı yerdə, səhiyyə təhlükəsizliyi ilə bağlı siyahıda 64 xalla 41-ci yerdə, fərdi təhlükəsizlik baxımından 63,7 xalla 49-cu yerdə, infrastruktur təhlükəsizliyi üzrə isə 46,3 xalla 54-cü yerdə qərarlaşıb.

Qeyd edilənə görə, reytinqdə birinci yeri Tokio tutub. Sonrakı yerlərdə ardıcıllıqla Sinqapur, Osaka, Amsterdam, Sidney, Toronto, Vaşinqton, Kopenhagen, Seul, Melburn qərarlaşıb. Araşdırma müəlliflərinə görə, hazırda bəşəriyyətin 56 faizi şəhərlərdə yaşayırsa, 2050-ci ildə bu rəqəm 68 faizə çatacaq.

Bakı hansı göstəricilərinə görə dünyanın ən təhlükəsiz şəhərləri sırasına düşüb?

Sosial sahə üzrə ekspert Azər Allahverənov "Bakı-Xəbər"ə bildirdi ki, Bakının dünyanın təhlükəsiz şəhəri kimi bu reytinqdə yer alması təsadüfi deyil. O hesab edir ki, paytaxtımız həqiqətən də təhlükəsiz bir şəhərdir və bunu xarici qonaqlar da, turistlər təsdiqləyir. "Bu cədvəl kifayət qədər nüfuzlu Britaniya təşkilatı tərəfindən tərtib edilib. Burada 60 şəhərin adı yer alıb. Səhv etmirəmsə, bu cədvəldə MDB məkanından yalnız Moskvanın və Bakının adı var. Moskva 37, Bakı isə 49-cu yerdədir. Təbii ki, paytaxtımızın top 50-yə daxil olması müsbət hadisədir və bu turizmin təşkili, Bakıya yeni turizm marşrutlarının yönəldilməsi baxımından çox əhəmiyyətlidir. Çünki məlumdur ki, bir çox turistlər bu və ya digər ölkəyə səfər edərkən həmin ölkənin təhlükəsizlik reytinqinə nəzər salırlar və təbii, daha təhlükəsiz şəhərlərə üz tuturlar. Bu baxımdan da, alət kimi həmin cədvəllərdən istifadə edirlər. "The Economist İntelligence Unit" tərəfindən hazırlanan cədvəl bizim üçün həm də ona görə əhəmiyyətlidir ki, Bakı burada 4 istiqamət, blok, mövzu üzrə qiymətləndirilib".

Azərbaycanın təhlükəsiz şəhər kimi qiymətləndirilməsinə səbəb kimi burada ətraf mühitlə bağlı görülən işlər, səhiyyə qurumlarına çıxış, xəstəxanaların, həkimlərin sayı, səhiyyə xidmətlərinin keyfiyyəti, təhlükəsiz qida göstərilə bilər. "Paytaxtımızın bu reytinqdə yer alması təsadüfi deyil. Bakı həqiqətən də təhlükəsiz şəhərdir. Ölkəmizdəki siyasi sabitlik, eləcə də digər amillər Bakının təhlükəsiz şəhərlər sırasına düşməsinə şərait yaradıb".

A.Allahverənov hesab edir ki, Bakının təhlüksiz şəhər kimi başqa reytinq cədvəllərində yer alması üçün əlaqədar dövlət qurumları daha səylə çalışmalıdır. O hesab edir ki, belə olarsa, növbəti siyahı dərc edilərkən Bakı daha üstün yerlərdə qərarlaşa bilər. "Bu reytinq cədvəli götürülməli və bu indikatorlar nəzərdən keçirilməlidir. Hər bir indikator üzrə konkret olaraq profilaktik tədbirlərin həyata keçirilməsinə başlanılmalıdır. Söhbət kibercinayətkarlıqla mübarizədən gedirsə, bizdə bir neçə icra qurumu var ki, onlar bu sahədə təmsil olunurlar".

***İradə SARIYEVA***

**Məlum olduğu kimi, Rusiya sahibkarlarının Azərbaycana işgüzar missiyası başlayıb. Rusiya Federasiyasının Kirov, Kostroma, Saratov, Ryazan, Vladimir, Moskva, Bryansk bölgələrindən 30-dan çox şirkət səfər zamanı öz potensiallarını təqdim edib və edəcək.**

# Rusiyanın bir neçə vilayətinin iş adamlarının Bakıda partnyor axtarışları - məsələnin mahiyyəti...

***Rəşad Həsənli:** "Rusiyalı sahibkarlarla yanaşı, xarici iş adamları da Azərbaycanda mövcud potensialdan istifadə edərək müxtəlif investisiya layihələrində iştirak etsinlər"*



Qeyd edək ki, işgüzar missiya Kiçik və Orta İxracatçılar Birliyi və Rusiya İxrac Mərkəzi tərəfindən təşkil olunur. Rusiya sahibkarlarının Azərbaycana işgüzar missiyası pilot layihədir, iş missiyasının yeni formatı, tədbirin maksimum səmərəliliyini təmin etmək üçün bölgələrin ən yaxşı təcrübələrini Rusiya İxrac Mərkəzinin imkanları ilə birləşdirməkdir.

İşgüzar missiya çərçivəsində Rusiyalı sahibkarla Azərbaycanlı həmkarları iş ortaqlığı qurmaqda maraqlıdır. Hətta, Bryansk, Saratov, Moskva, Vladimir şirkətləri Azərbaycanda iş ortaqları axtarır.

Maraqlıdır, Rusiya vilayətlərinə məxsus şirkətlərin Azərbaycanla əməkdaşlıq etmək istəyi ölkə iqtisadiyyatına nə kimi töhfə verəcək?

İqtisadçı ekspert Rəşad Həsənli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, rusiyalı sahibkarlar öz məhsullarını ilk növbədə Azərbaycan bazarında satmağa çalışır: "Daha yaxşı olar ki, rusiyalı sahibkarlarla yanaşı, xarici iş adamları da Azərbaycanda mövcud potensialdan istifadə edərək müxtəlif investisiya layihələrində iştirak etsinlər. Bu, ölkə iqtisadiyyatı üçün imkanlar formalaşdıracaq. Bununla istehsal mühiti genişlənəcək, yaradılan əlavə dəyərin həcmi artacaq, eyni zamanda rəqabətli məhsul istehsalı xarici təcrübənin idxalında arta bilər. İndiki halda ölkəyə gələn şirkətlər daha çox öz məhsullarını Azərbaycan bazarında yerləşdirmək məqsədi daşıyır. Təbii ki, bu amil də Rusiya ilə Azərbaycan arasında xarici ticarət əlaqələrinin genişlənməsinə səbəb ola bilər. Əsas üstünlük Rusiya tərəfindən Azərbaycana ixrac olunacaq məhsulların həcmində olacaq. Təbii ki, bu, ölkəyə daxil olacaq valyutanın həcminə təsir edəcək".

*"Rusiyalı sahibkarların diqqətinə Azərbaycan iqtisadiyyatının potensialı haqqında dolğun məlumatlar çatdırmaq lazımdır ki, xarici sahibkarlar ölkə iqtisadiyyatına investisiya yatırmaqda maraqlı olsunlar"*

İqtisadçı hesab edir ki, rusiyalı sahibkarların diqqətinə Azərbaycan iqtisadiyyatının potensialı haqqında dolğun məlumatlar çatdırmaq lazımdır. Belə olarsa, xarici sahibkarlar ölkə iqtisadiyyatına investisiya yatırmaqda maraqlı olar.

***Ülviyyə NAĞIYEVA***

**Azərbaycanla Avropa İttifaqı arasında əhatəli əməkdaşlıq barədə yeni saziş layihəsi üzərində danışıqlarda yaranmış əsas əngəllər məlum olub. Bu haqda Brüsseldəki diplomatik mənbələr eurastiv.com portalına məlumat sızdırıblar.**




# Avrokomissiyanın yaxın iki ayda Azərbaycanla müqavilə imzalaması üçün səsləndirdiyi maraqlı şərt...

## *Fikrət Yusifov: "Söhbət ÜTT-yə üzv olmaqla bağlı işlərin sürətləndirilməsindən gedir"*

Sayt yazır ki, Yunkerin komissiyası (Avropa Komissiyasının rəhbəri Jan-Klod Yunker) Azərbaycanla yeni ticarət-siyasi razılaşmaya dair danışıqların qarşıdakı iki ay ərzində yekunlaşacağına ümid edir, bir şərtlə ki, Bakı layihənin ticarət hissəsində irəliləsin. Yəni bir az hərəkət etsin.

Azərbaycanla Avropa İttifaqı arasında münasibətlər 1999-cu ildən qüvvədə olan tərəfdaşlıq və əməkdaşlıq razılaşmasına əsaslanır. 2017-ci ilin fevralından tərəflər yeni çərçivə razılaşmasına dair danışıqlara başlayıblar. Bu danışıqlar sona yaxınlaşır, amma bəzi həll edilməmiş məsələlər var.

Ötən ilin oktyabrında Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov sözügedən sayta açıqlamasında demişdi ki, ölkəsi razılaşmanın indiki komissiyanın səlahiyyət müddətinin başa çatmasına qədər imzalanacağına ümid edir. Yunkerin komissiyasının səlahiyyətləri 2019-cu il noyabrın 1-də başa çatır.

2019-cu ilin aprelində isə Brüsseldə E.Məmmədyarovla danışıqlardan sonra Aİ-nin xarici siyasət komissarı Federiko Mogerini tərəflərin danışıqların "yekun, həlledici fazasına" daxil olduqlarını açıqlamışdı.

Onu da qeyd edək ki, Brüssellə müzakirələri aparan azərbaycanlı rəsmilərin dəfələrlə bildirdiyi kimi, Azərbaycanın Aİ ilə danışıqlarda öz strategiyası var. Azərbaycanın Aİ ilə münasibətlərinin gündəminə iqtisadiyyat, mədəniyyət və digər sahələrdə münasibətlərin dərinləşməsi daxildir. Lakin Bakı regiondakı və dünyadakı bütün amilləri, güc mərkəzlərini nəzərə almaqla bundan sonra da praqmatik siyasət aparacaq. Yəni müstəqil, özünün milli, iqtisadi, siyasi və geosiyasi maraqlarına əsaslanan siyasətini davam etdirəcək.

*"Azərbaycan daxili bazarı qorumaq nöqteyi-nəzərindən buna hələ tələsmir"*

Bütün bu deyilənlərin fonunda, maraqlıdır, sözügedən sazişlə bağlı səsləndirilən şərt (Bakı layihənin ticarət hissəsində irəliləsin) nə deməkdir? Burada söhbət nədən gedə bilər?

Məsələyə aydınlıq gətirən iqtisad elmləri doktoru Fikrət Yusifovun sözlərinə görə, tələb Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına üzv olması ilə bağlıdır: "Yəni söhbət ÜTT-yə üzv olmaqla bağlı işlərin sürətləndirilməsindən gedir. Məsələ ondadır ki, Azərbaycan hələlik bu quruma üzv olmaq istəyində deyil. Bunun da bəlli səbəbləri var. Səbəb onunla bağlıdır ki, daxili bazarı qorumaq nöqteyi-nəzərindən ÜTT-yə daxil olmağa tələsmir. Baxmayaraq ki, müstəqilliyin ilk illərindən ÜTT-yə üzv olmaqla bağlı danışıqlar gedir, görüşlər keçirilir. Ancaq hələlik bu yöndə nəticə yoxdur.

Bunun başlıca səbəbi onunla bağlıdır ki, Azərbaycanın qeyri-neft sektoru hələ arzuolunan səviyyədə inkişaf etməyib. Qeyri-neft sektorunun hazırkı inkişaf səviyyəsi, hələ ki, bizə imkan vermir bu quruma qoşulaq. Quruma qəbul edilsək, o zaman başqa ölkələrdə istehsal olunan qeyri-neft məhsulları yerli məhsulları bazardan sıxışdıracaq.

O səbəbdən daxili bazarı qoruyuruq. Aİ isə standartlar tətbiq edir. Həmin standartlar ondan ibarətdir ki, Aİ ilə əməkdaşlıq sazişi imzalamaq istəyən ölkə ÜTT üzvü olmalıdır. Bax, problem bundan ibarətdir".

***Vidadi ORDAHALLI***

**Bu günlərdə Ermənistan Baş naziri, Müdafiə naziri, Xarici İşlər naziri və bəzi səfirlərin iştirakı ilə qapalı müzakirələr keçirilib. Bu barədə Ermənistanın "Hraparak"qəzeti məlumat yayıb. Qəzetin yazdığına görə, sözügedən qapalı görüşdə müzakirə mövzusu ABŞ hakimiyyəti tərəfindən mənfi qarşılanan Suriyaya göndərilmiş hərbi heyət olub.**



# Ermənistan baş nazirinin, XİN və müdafiə nazirlərinin üçlü qapalı görüşü - Suriya məsələsi, ABŞ-a yeni güzəştlər barədə ilginc söhbətlər, Rusiyanı necə ovundurmalı...

## *Elman Nəsirov: "Məlum qapalı toplantının keçirilməsi, orada ABŞ-la münasibətlər məsələsinin müzakirə edilməsi Paşinyanın narahatlığından irəli gəlir"*

Məlumata görə, ABŞ tərəfi bu günlərdə təkrarən məsələnin Ermənistan-ABŞ münasibətlərinə mənfi təsir etdiyinə dair Paşinyan hakimiyyətinə narazılığını ifadə edib. Müzakirələrin məqsədi yaranmış vəziyyətdən çıxış yolu tapmaq, ABŞ-ın rəğbətini qazanmaq və razı salmaq yollarının axtarışı olub. Lakin Suriyadan hərbi heyətin çıxarılması müzakirə mövzusu deyil, çünki belə olan halda Rusiya ilə problemlər yarana bilər.

Ermənistan Xarici İşlər Nazirliyi belə bir müzakirənin keçirildiyini inkar etsə də, nəşr müzakirə edilən mövzu, detallar və qəbul edilən qərarla bağlı məlumatlı olduğunu qeyd edir.

Ancaq yazıda ABŞ-ı razı salmaq üçün Ermənistanın hansı addımı ata biləcəyindən, hansı məsələdə güzəştə gedəcəyindən heç nə deyilmir. O da məlumdur ki, Paşinyan hakimiyyətinin və erməni lobbisinin ciddi səylərinə baxmayaraq, ABŞ-Ermənistan münasibətlərində bir sıra problemlər qalmaqdadır. Ermənistan rəsmiləri ABŞ-da yüksək səviyyədə qarşılanmır, bu ölkədən sərmayələrlə bağlı gözləntilər özünü doğrultmadı və s.

Bütün bu deyilənlərlə yanaşı maraqlıdır, Ermənistan ABŞ-ı razı salmaq üçün hansı güzəştə gedə bilər?

Məsələyə münasibət bildirən millət vəkili Elmən Nəsirovun sözlərinə görə, Ermənistanda Paşinyan hakimimiyyətinin yeritdiyi daxili və xarici siyasət əslində ölkəni dalana dirəyib: "Nə daxili, nə də xarici siyasətdə bir konkretlik, müəyyənlik var. Xüsusilə xarici siyasətdə qeyri-müəyyənlik çox pis hal sayılır. Dövlətin daxili və xarici siyasətinin aydın və dəqiq konturları olmalıdır. Bunu isə Paşinyan hakimiyyətinin yeritdiyi siyasət barədə söyləmək mümkün deyil. Xüsusilə də Paşinyanın eyni zamanda həm Rusiyanın, həm də ABŞ-ın yanında olmaq siyasəti qəbul edilmir. Buna eyni vaxtda iki stulda oturmaq siyasəti kimi qiymət verilir. Ona görə də nə Moskva, nə də Vaşinqton Ermənistanın indiki hakimiyyətini özünün yaxın müttəfiqi hesab etmir. Müəyyən mənada bu hakimiyyətə olan etimadsızlığın bütün elementləri göz qabağındadır. Məlum

*"Hazırkı şəraitdə Ermənistanın Birləşmiş Ştatları qane edəcək hansısa addım atacağını mümkün hesab etmirəm"*

qapalı toplantının keçirilməsi, orada Birləşmiş Ştatlarla münasibətlər məsələsinin müzakirə edilməsi Paşinyanın narahatlığından irəli gəlir. Bununla ABŞ-ın Ermənistana olan soyuq münasibətini etiraf edirlər. Məlum olur ki, Birləşmiş Ştatlar Paşinyan hakimiyyətinin yeritdiyi xarici siyasət kursundan məyusdur. Ermənistanın Suriyaya hərbi heyət göndərməsi və birmənalı şəkildə Rusiyanın yanında yer alması Vaşinqtonu məyus edir. Həmçinin, Paşinyan hakimiyyətinə qarşı etimadsızlıq mühiti formalaşdırır. İndi Ermənistan hakimiyyəti ABŞ-ı razı salmaq üçün yollar axtarır, amma bu mümkün görünmür.

**Çünki həm Moskvanın, həm də Vaşinqtonun yanında olmaqla buna nail olmaq real görünmür. İstəyirlər ki, Azərbaycan kimi balanslaşdırılmış siyasət yeritsinlər. Ancaq bu da Ermənistanda alınmayacaq. Çünki Ermənistan müstəqil dövlət deyil. O baxımdan hazırkı şəraitdə Ermənistanın ABŞ-ı qane edəcək hansısa addım atacağını mümkün hesab etmirəm".**

***Vidadi ORDAHALLI***

**Ermənistanın Baş naziri Nikol Paşinyan ölkənin xaricdəki səfirlərinin işini bəyənmir. Erməni KİV-nin yazdığına görə, N.Paşinyan, xüsusən Ermənistanın ABŞ-dakı səfiri Varujan Nersisyanın fəaliyyətindən narazıdır.**



# Paşinyan öz səfirləri ilə müharibəyə başladı - "Trampla məni görüşdürmədiniz, ölkəyə pul gətirə bilmədiniz..."

## *Elşən Mustafayev: "Paşinyan bütün bu uğursuzluğunu səfirlərin üzərinə atmaqla öz səriştəsizliyini ört-basdır etmək istəyir"*

Paşinyan avqustun 27-də Ermənistanın xaricdəki diplomatik nümayəndəliklərinin rəhbərləri ilə görüşündə deyib ki, səfirlər ölkə iqtisadiyyatı üçün heç bir iş görmürlər: "Səfirlər nə investisiya cəlb edirlər, nə də digər dövlətlərlə iqtisadi əlaqələri inkişaf etdirirlər".

O, Ermənistanın ABŞ-dakı səfiri Varujan Nersisyana qəzəblənib. Nəşrin mənbəsi bildirib ki, buna səbəb səfirin Paşinyanın ABŞ rəhbərliyi, xüsusilə də Prezident Donald Tramp və ya dövlət katibi Mayk Pompeo ilə görüş təşkil edə bilməməsidir.

Qeyd edək ki, Ermənistanın yeni hakimiyyəti hələ də ABŞ rəhbərliyi ilə görüşməyib. N.Paşinyan və xarici işlər naziri Zohrab Mnatsakanyan bir neçə dəfə ABŞ rəhbərliyi ilə görüşə cəhd etsə də, qarşı tərəf buna məhəl qoymayıb. Paşinyan səfirləri bu şəkildə danlamaqla nəyə işarə etmək istəyir?

Politoloq Elşən Mustafayev "Bakı-Xəbər"ə bildirdi ki, Paşinyanın narahatlığının kökündə başqa amillər durur: "Hakimiyyətə gəldiyi dönəmdən indiyə kimi verdiyi vədlərin heç birinə əməl edə bilməyib. Ölkədəki iqtisadi vəziyyət daha da pisləşir. Siyasətdən elementar anlayışı olan hər kəs bilir ki, ABŞ kimi ölkənin rəhbərliyinin hansısa dövlət başçısını qəbul etməsi, onunla görüşməsi səfirə bağlı olan məsələ deyil. Səfir nə qədər mahir diplomat olsa da, bunu etmək gücünə malik deyil. ABŞ rəhbərliyinin Paşinyanı qəbul etməməsinin kökündə başqa amillər durur. Bu, Ermənistanın yeni hakimiyyətinin yürütdüyü qeyri-müəyyən siyasətlə bağlıdır.

Ermənistanda baş verən məxməri inqilabı ABŞ-da diqqətlə izləyiblər. Bunun əsasında özləri üçün çıxarış edərək, müəyyən gözləntiləri formalaşdırıblar. Onlar hesab edib ki, Ermənistanda baş verən dəyişiklik Ermənistan-ABŞ münasibətlərinə müsbət təsir edəcək. Bu müddət ərzində Ermənistan tərəfindən xüsusi fəallığın olmaması səbəbindən keçən inqlabın ilk dövründə açılan əməkdaşlıq pəncərəsi artıq bağlanıb. Baş nazir Nikol Paşinyanın ABŞ-ı ən çox tənqid edən Ermənistan rəhbəri olması barədə bəyanatını ABŞ-da diqqətlə izləyiblər. Bunu Paşinyanın özü etiraf etmişdi. Təbiidir ki, Rusiyanın xoşuna gəlmək üçün həmin addımı atırdı. Amerikalılar ABŞ tərəfini tənqid etməklə Rusiyanı qazanmaq siyasətini qəbul edə bilmirlər. Son zamanlar yüksək vəzifəli ABŞ məmurları ümumiyyətlə Ermənistana səfər etmir. Hətta Ermənistan müxalifəti belə bunu acınacaqlı hal sayır və müzakirə olunmasını tələb edir. Onlar hesab edirlər ki, yaranmış vəziyyət Ermənistan-ABŞ münasibətlərinin normallığı görüntüsünü yaratmır. Tramp və Paşinyan arasında görüş ehtimalı isə yaxın zamanlar üçün mümkün deyil. Paşinyan bütün bu uğursuzluğunu səfirlərin üzərinə atmaqla öz səriştəsizliyini ört-basdır etmək istəyir. Bununla bir daha sübut olunur ki, Ermənistanda bütün sahələrdə olduğu kimi, xarici siyasətdə də acınacaqlı vəziyyət yaranıb".

***Məhəmmədəli QƏRİBLİ***

---

**Paşinyan indi də "qanuni oğrulara" müharibə elan edib. Ermənistanın Baş naziri Nikol Paşinyan "oğru dünyası" ilə mübarizəni gücləndirmək üçün ölkənin Cinayət Məcəlləsinə dəyişiklikləri elan edib. Baş nazir Facebook səhifəsində artıq hökümət tərəfindən qanuna dəyişikliklə bağlı qərar qəbul edildiyini bəyan edib.**



# Paşinyan əsgər analarını aldatdı, islahat vədini icra etmədi, indi də kriminal avtoritetlərə döyüş vədi verir...

## *Arzuxan Əlizadə: "Kriminal avtoritetlərə qarşı mübarizə adı altında Paşinyan aşağı düşən reytinqini qaldırmaq istəyir"*

Onun sözlərinə görə, qanunun məqsədi mütəşəkkil cinayətkar qruplaşmalar yaradanların və onlara başçılıq edənlərin cinayət məsuliyyətinə cəlb edilməsini təmin etməkdir. Ədliyyə naziri Rüstəm Badasyan isə hökumətin iclası zamanı qanunda, xüsusilə Cinayət Məcəlləsinin 222 və ya 223-cü maddələrində ("Banditizm" və "Cinayətkar qrup yaratmaq və ya cinayətkar qrupda iştirak etmək") cinayətkar qrup yaradanların və ya onlara rəhbərlik edənlərin məsuliyyətə cəlb edilməsini təklif edib.

"Kriminal subkulturaya mənsub olanlar həbsxananı öz evi hesab edir, buna görə də onları evlərinə göndərmək lazımdır", - N.Paşinyan deyib.

Ədliyyə naziri isə mütəşəkkil cinayətkar qruplaşma yaradanlar və ya onlara başçılıq edənlər kateqoryasına nəinki "qanuni oğruların", həmçinin bu titulu daşımayan kriminal avtoritetlərin də düşəcəklərini deyib.

O da məlumdur ki, Paşinyan hakimiyyətə gələndən bir sıra vədlər verir, amma bütün bunlar elə vəd olaraq qalır. Bir vaxtlar Paşinyan ölkədə ciddi islahatların keçiriləcəyini və bunun nəticəsində çevik dövlət aparatının qurulacağını deyirdi. Ancaq Paşinyanın bu vədi reallaşmadı. Əksinə, yeni qurumlar yaradıldı ki, bu da ölkədəki birokratik sistemi bir az da gücləndirdi. Paşinyanın ən böyük vədlərindən biri də iqtisadiyyata sərmayələrin cəlbi ilə bağlı idi. Əmin edirdi ki, yaradılacaq sistem sayəsində Qərbdən ölkəyə sərmayə axını artacaq. Ancaq bu da baş vermədi. Eyni zamanda, əsgər analarına orduda islahatların aparılacağını, qeyri-döyüş şəraitində ölüm hallarına son qoyulacağını deyirdi. Ancaq bunların heç biri baş vermədi. Dağlıq Qarabağda müxtəlif dövrlərdə ölən erməni əsgərlərinin anaları tez-tez etiraz aksiyası keçirir. Müxtəlif dövrlərdə ölən əsgərlərin anaları yenidən hökumət qarşısında etiraz edir. Bəyan edirlər ki, orduda islahatlarla bağlı verilən vədlərin heç biri həyata keçməyib.

Göründüyü kimi, Paşinyanın əvvəliki islahat vədləri fiaskoya uğrayıb. Son qərarı da bunlardan biri ola bilər. Bununla belə, güman etmək olarmı ki, Paşinyan kriminal avtotitetlərə qarşı müharibə elan etməklə əvvəlki islahat vədlərini yerinə yetirə bilməməsini kompensasiya etmək üçün cəmiyyətdə hörmət qazanmaq istəyir?

Məsələyə münasibət bildirən AMİP-in baş katibi Arzuxan Əlizadənin sözlərinə görə, Paşinyan müxtəlif vasitələrlə çalışır ki, cəmiyyətdə sürətlə aşağı düşən reytinqini bərpa etsin: "Ona görə də müxtəlif vasitələrə əl atır. Əslində Paşinyan özü də bilmir nə edir. Bir il dörd aydır ölkənin baş naziridir. Ötən bu müddət ərzində həyata keçirmək istədiyi islahatlar, layihələr cəmiyyətdə birmənalı qarşılanmadı. Cəmiyyətin müxtəlif təbəqələri tərəfindən bu ya qıçıqla, ya da istehza ilə qarşılanır. Xüsusən də Ermənistan cəmiyyətinin Paşinyandan əsas gözləntisi iqtisadiyyatla bağlı idi. Ancaq müşahidələr göstərir ki, Ermənistan iqtisadiyyatında əsaslı inkişaf meylləri özünü göstərmir. Bunun kökündə duran başlıca problem sərmayə qıtlığıdır. Xarici sərmayələrin ölkəyə axını ötən müddət ərzində özünü göstərməyib. Baxmayaraq ki, Paşinyan bir sıra ölkələrə səfərlər etdi, investorlara vədlər verdi. Eyni zamanda gözləyirdi ki, beynəlxalq maliyyə qurumları kredit verəcəklər. Ancaq bunların heç biri reallaşmadı. Digər tərəfdən, ölkənin xarici borcu artır, demoqrafik göstəricilər pisləşir. Ona görə də kriminal avtoritetlərə qarşı mübarizə adı altında Paşinyan aşağı düşən reytinqini qaldırmaq istəyir. Ancaq bu onu xilas edə bilməyəcək. Nə qədər ki, ölkə iqtisadiyyatı yerində sayır, bu cür tədbirlərlə cəmiyyətdə sosial dayaqları gücləndirmək mümkün olmayacaq".

*"Nə qədər ki, ölkə iqtisadiyyatı yerində sayır, bu cür tədbirlərlə cəmiyyətdə sosial dayaqları gücləndirmək mümkün olmayacaq"*

***Namiq QULİYEV***

# Pullu başsağlıqlarının ləğv olunacağını digər rəsmi qəzetlər necə qarşılayır...

## "Azərbaycan", "Xalq" və "Respublika"...

**Milli Məclisin payız sessiyasında "Dini etiqad azadlığı və dini qurumlar haqqında" qanun layihəsinin müzakirəyə təqdim edilməsi nəzərdə tutulur. Bununla bağlı Yeni Azərbaycan Partiyası (YAP) icra katibinin müavini, İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov açıqlamasında bir sıra fikirlər səsləndirib.**

O, rəsmi dövlət qəzetlərində rəsmi şəxslərdən, ölkə Prezidentinin verdiyi başsağlığından başqa digər şəxslərin başsağlığı verməsinin qadağan olunacağını da bildirib. Məhz rəsmi qəzetlərdə başsağlıqlarının yığışdırıla biləcəyi ilə bağlı müddəanın qanunvericilikdə əks olcağı haqda səslənən fikirlər ətrafında ciddi müzakirələr başlayıb. Əksər media ekspertləri belə bir addımın doğru olduğunu vurğulayıb. Ancaq daha çox başsağlıqlarının dərc edildiyi "Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov bununla razılaşmadığını deyib: "Bizim ictimai birliklər və dini qurumlar komitəsinin sədrinin fikirləri ilə tanış oldum. Burada bəzi məqamlar var ki, onu düzgün yanaşma hesab etmirəm. Bunun da səbəbləri var. Xalqımızın milli-mənəvi dəyərləri mövcuddur. Bu dəyərlərdən biri də ondan ibarətdir ki, insanların birinə itki üz verəndə onlara başsağlığı verirlər. Bunu ya hüzr yerinə getməklə, ya da qəzet vasitəsilə edirsən. Dünya praktikasında da belədir. Bizim əksəriyyətimiz rayonda doğulmuşuq, sonradan köçmüşük. Rayonda hüzr yeri olanda insanlar gedə bilmirlər, ona görə də qəzet vasitəsilə başsağlığı verirlər. Bunun digər müsbət cəhəti də odur ki, qəzet vasitəsilə insanlar kimə kədərin baş verdiyini öyrənə bilərlər. Bu başsağlıqları o qədər böyük material deyil ki, narahatlıq doğursun. Söhbət rəsmi qəzetlərdən gedirsə, biz dövlət büdcəsində deyilik, təsərrüfat hesablıyıq. Nə qazansaq, biz onu yeyirik, yaxud da xərcləyirik. Sizin qəzet də yaxşı bilir ki, reklam bazarı yoxdur, buna görə də qəzet üçün reklam bazarı formalaşmayıb. Televiziyaların kifayət qədər reklam bazarı var. Hətta sutka ərzində televiziyalarda verilişlərdən daha çox reklamlar gedir. Gizli və açıq, eləcə də sponsor dəstəyi ilə olan reklamları hər kəs yaxşı bilir. Amma qəzet reklamı yoxdur. Belə olan halda biz qəzeti yaşatmaq üçün reklam və elan verməliyik. Elanların içərisində başsağlıqları müəyyən məbləğdə gəlir gətirir. Haradasa bizim qəzetin 20-25% gəliri başsağlığından gəlir. Bunu bizə qadağan etsələr, bu vəsaiti bizə kim ödəyəcək? O zaman jurnalistlərə necə əmək haqqı ödəyəcəyik? Cənab Prezidentin sosial paketi oldu. Bütün insan qruplarının hamısı o sosial paketdən bəhrələndi. Dövlət büdcəsindən maliyyələşən təşkilatlar da bundan bəhrələndi. Cənab Prezident KİV-in İnkişafına Dəstək Fondunun dəstəyi ilə müstəqil mətbuatın maliyyələşməsinə çox böyük şərait yaradır. Sistemli şəkildə onlar maliyyələşirlər. Amma bizim qəzet bundan da kənardadır. Çünki bizim təsisçimiz dövlət qurumu, yəni Milli Məclisdir. Parlament isə bizə nə bir manat pul verir, nə də ayrıca bir maliyyə dəstəyi edir. Ümumiyyətlə, heç bir şey etmədiyini açıq şəkildə söyləyirəm.

Baxmayaraq ki, qəzetimizin nizamnaməsində bütün maddi, maliyyə və texniki dəstəyin hamısını Milli Məclisin etməli olduğu yazılıb. Məsələnin çox mühüm olan bir tərəfi də var. Bilirsiniz ki, Azərbaycanda mətbuat azadlığı var. Bu azadlığın müstəqil, rəsmi və dövlət qəzetlərinin hər birinə aidiyyəti var. İnanmıram ki, qanunla mətbuata qadağan oluna ki, sən elan götürmə, elan vermə. Azərbaycanda heç vaxt inanmaram ki, mətbuat və söz azadlığı ilə bağlı məhdudlaşdırıcı qanun qəbul olunsun, yaxud da məhdudlaşdırıcı maddə olsun. Ona görə də millət vəkili, həm də yeganə rəsmi qəzetin redaktoru kimi bu mövqeyi qəbul etmirəm. Burada qəzetin fəaliyyətinə qanuni şəkildə mane olma var. Azərbaycanda isə heç vaxt mətbuat azadlığı məhdudlaşdırılmayıb. Bizdə çox ciddi maliyyə sıxıntısı da yaranacaq. Bütün bu məsələləri həll yoluna qoymadan belə bir qanunun qəbulunu tez sayıram. Bunun mənəvi tərəfləri də var. İnsanlara şərait yaratmaq lazımdır ki, bir-birinin dərdlərinə şərik olsunlar, insanlar hüzr yerinə getməyə yüz kilometrlərlə yol sərf etməsinlər. Dünyanın bir çox ölkələrində başsağlıqları yarım səhifə verilir. Bir insanın imkanı var ki, başsağlıqlarını qəzetdə verdirir. Bu məcburiyyət deyil, könüllü bir şeydir. İnsanların bu istəklərinin qarşısına sədd çəkmək olmaz".

Əslində olduqca maraqlı detallar ortaya çıxmış olur. Rəsmi qəzetin baş redaktoru iddia edir ki, onlar başsağlığı verməsələr qəzetin maliyyəsində problem yarana bilər. Məgər rəsmi qəzetlərin maliyyələşməsi üçün ayrılan vəsaitdə bütün xərclər nəzərdə tutulmur ki, ümid başsağlıqlarına qalıb? Məsələn, bizim çalışdığımız "Bakı-Xəbər" qəzeti yaranandan elan, təbrik və başsağlıqlarını pul almadan çap edir. Yəni qəzetin bu amildən asılı qalması bir qədər maraqlı görünür. Çünki bu həm də proqnozlaşdırılmayan prosesdi. Məsələn, elə ay olar ki, rəhmətə gedən az olar və ya ümumiyyətlə olmaz. Onda belə çıxır ki, qəzet maliyyə problemi ilə üzləşməlidir? Mövzuya digər rəsmi qəzetlərin də münasibətini öyrənmək qərarına gəldik.



*Bəxtiyar Sadıqov: "Dünyanın bir çox ölkələrində başsağlıqları yarım səhifə verilir"*

*Hümbət Musayev: "O qanun ortada yoxdursa, bununla bağlı hər hansı şərh vermək istəmirəm"*

*Tahir Aydınoğlu: "Bəli, həmin başsağlıqları müəyyən qədər bizim maliyyə mənbəyimizdir"*

"Respublika"qəzetinin baş redaktorunun müavini Hümbət Musayev "Bakı-Xəbər"ə bildirdi ki, hələlik bununla bağlı hər hansı bir rəsmi mövqe yoxdur: "Sizin dediyiniz mövzu ətrafında hələlik ictimai müzakirələr aparılır. Hərə öz fikirini bildirir. Əgər qanun qəbul edilərsə, hamı buna əməl etməlidir. O qanun ortada yoxdursa, bununla bağlı hər hansı şərh vermək istəmirəm".

Digər rəsmi orqan sayılan " Xalq qəzeti"nin məsul əməkdaşı, Əməkdar jurnalist Tahir Aydınoğlu bildirdi ki, hələlik ortada konkret qanun layihəsi yoxdur: "Bəli, həmin elan və başsağlıqlarından rəsmi qəzetlərə maliyyə daxil olur. Əgər o ləğv olunacaqsa, onda yerini nə dolduracaq? Mən elə sizin sualınıza sualla cavab vermək istədim".

"Onda belə çıxır ki, dövlətin ayırdığı maliyyə rəsmi qəzetləri tam görmür" sualına isə Tahir Aydınoğlu belə cavab verdi: "İstənilən qanun layihəsinə hörmətlə yanaşmalıyıq. Qəbul edilməmiş bir ciddi layihə ilə bağlı hələ müzakirələr gedirsə, onda hər kəs öz fikirini deyə bilər. Bəli, həmin başsağlıqları müəyyən qədər bizim maliyyə mənbəyimizdir. Müəyyən qədər oxucularla əlaqə vasitəmizdir. Həmin elanların verildiyi qəzeti axtarırlar, oxucuya bizi yaxınlaşdıran faktordu bu. Yaxşı, qadağan olunsa, onu nə əvəz edəcək?"

***Məhəmmədəli QƏRİBLİ***

# Fuad Abbasov "Qarabağlılara ev kirayə vermirik" mesajını niyə ictimailəşdirdi...

*Qalmaqallı jurnalist regionlararası antipatiya toxumu səpdiyi ilə heç cür razılaşmır*

**Jurnalist Fuad Abbasov kirayə ev axtararkən "xoşagəlməz" halla rastlaşması ilə bağlı bir təbliğat kampaniyasına start verib. Bu barədə jurnalist öz şəxsi "Instagram" hesabında paylaşım edib. Evi icarəyə verən maklerlə söhbətinin səs yazısını paylaşan jurnalist gözlənilməz cavabla qarşılaşdığını bildirir.**

"Biz qarabağlıya kirayə ev vermirik" deyən makler Fuadı xeyli təəccübləndirib. Jurnalist həmin danışığın səs yazısını da paylaşıb. Əslində belə bir addımın məhz tanınmış jurnalist tərəfindən atılması xeyli sual doğurur. Çünki biz çox nadir hallarda görmüşük ki, maklerlər evi kirayəyə verəndə kiminsə regional mənsubiyyəti ilə maraqlanır. Onların maraqlandıqları əsas məsələ evi götürəcək şəxsin ailəli və ya subay olması, əgər tələbələrdirsə, evdə qızların və ya oğlanların qalacağı ilə bağlı olur. Yəqin Fuad kimi jurnalist yaxşı bilir ki, onun apardığı bu təbliğat çox həssas olan regionlararası münasibətlərin gərginləşməsinə yönəlmiş ola bilər. Təsadüfi deyil ki, mövzu ilə bağlı aparılan ictimai müzakirələrdə qeyd edilir ki, Fuad bu hadisəni qəsdən quraşdırıb. Bir anlıq götürək ki, hansısa makler Fuada belə bir sözü həqiqətən deyib. Daima sinəsinə döyüb Azərbaycan fədaisi olduğunu deyən jurnalistə yaraşarmı ki, belə lazımsız təbliğatı ilə ölkədə regionlararası münasibəti qızışdıran bir fəaliyyət ortaya qoysun? Bütün bu suallara aydınlıq gətirmək üçün jurnalist Fuad Abbasovun özü ilə əlaqə saxladıq. Onunla olan söhbətimizi təqdim edirik.

**- Kirayə ev axtaranda xoşagəlməz halla rastlaşmağınızla bağlı paylaşım edib, səs yazısı yayıbsınız. Hansı əmlak bürosu ilə danışıbsınız?**

- Bəli, belə hal olub. Ancaq hansı büro ilə danışdığımı bilməmişəm.

**- Sizə doğrudanmı kirayə ev lazımdı, yoxsa mövzu ilə bağlı jurnalist araşdırması aparırdınız?**

- Düzünü deyim ki, kirayə evlə bağlı problemim də yoxdu. Yəni elə bir halda deyiləm ki, kimsə mənə evini kirayə verməsin. Sadəcə olaraq, bu işlə məşğul olanların "qarabağlılara ev vermirik" ifadəsini ictimailəşdirməyə qərar verdim ki, onlar ayılsınlar. Bilsinlər ki, indi 25 il əvvəlki vəziyyət deyil. Yəni Qarabağdan gələn qaçqın girdiyi evdən çıxmasın. Mən ev sahiblərini də başa düşürəm ki, onların fikrində qarabağlılar belə qalıb. Əgər bir adam min manat verib iki aylıq ev kirayələmək istəyirsə, ona evə girib çıxmamaq lazım ola bilməz. Təəssüf ki, "qarabağlı girdiyi evdən çıxmaya bilər" kimi stereotip hələ də yox olmayıb. Qoy bilsinlər ki, qaçqınların böyük hissəsi yerləşib. Dövlət onlara yaxşı və ya pis də olsa ev verib. Belə fikirdə qalmaq yaxşı deyil.

**- Yəni hesab edirsiniz ki, sizə evin verilməməsində hallandırılan regional səbəb siyasi deyil, başqa amillə bağlıdır?**

- Böyük bir ehtimalla, burda mənəvi, siyasidən çox iqtisadi səbəb var. Ola bilsin ki, hansısa ev sahibi və ya makler belə halla rastlaşıb. Onun əlində bir mənəvi, etik səbəbi də var. Mən burda başqa bir yanaşma da görürəm. Bəlkə də demək istəyirlər ki, qarabağlı ev istəyirsə, getsin torpağını alsın.

## *"Onsuz da bizim cəmiyyətdə yerlibazlıq, qohumbazlıq var"*

**- Biz kirayə bazarında ev axtaranlara başqa sualların verildiyini bilirik. Nədənsə, kimin haralı olması ilə bağlı ona kirayə ev verilməməsi ilə illk dəfədir rastlaşırıq. Bəlkə burda hansısa piar məqsədiniz var?**

- Mənim özüm də bunu çox qəribə qarşıladım. Çünki adətən biz Moskvada gördük ki, "qarabalalara ev vermirəm" ifadəsi çox işlənir. Yəni daha çox bizi nəzərdə tutub bunu deyirdilər. İndi də Bakıda görürük ki, burda da qarabalaları qarabağlılarla əvəz edib, onlara ev vermirlər.

**- Siz kifayət qədər təcrübəli jurnalistsiniz. Yəqin bilirsiniz ki, bu cür təbliğatınızla ölkəmizdəki təhlükəsizlik mühitinə xeyirdən çox ziyan vermiş olursunuz. Ola bilməzdi ki, regional münasibətlərin qızışdırılması komponentləri olan paylaşımı etməyəsiniz?**

- Əlbəttə ki, etməmək olardı. Sizinlə razıyam. Onda vəziyyət olduğu kimi də davam edəcəkdi. Maklerlər, ev sahibləri "qarabağlılara ev vermirik" kəlməsini işlətməkdə davam edəcəkdilər. Bunu mən ictimailəşdirəndən sonra, ən azından belə tendensiya azalacaq. Hamı sussa da olmur axı. Kimsə bunu deməlidir, ya yox? Önsuz da bizim cəmiyyətdə yerlibazlıq, qohumbazlıq var. Biz jurnalistlər belə halları mütləq yazmalıyıq.

**- Bu mövzu ətrafında gedən polemikalardan görürük ki, hətta bu səhnənin sizin tərəfinizdən məqsədli təşkil edildiyi qənaətində olanlar da var. Buna münasibətiniz necədir?**

- Mənim paylaşımımda həmin elanı verən maklerin adı və telefonu qeyd edilib. Kim inanmırsa, zəng vurub maraqlana bilər. Hətta maklerin özü yazıb ki, onluq olan məsələ deyil, tələbi ev sahibi qoyub.



**Fuad Abbasov:** *"Bəlkə də demək istəyirlər ki, qarabağlı ev istəyirsə, getsin torpağını alsın"*

**- Sizin paylaşımınızdakı maklerin danışdığı ləhcə də maraqlı gəldi bizə. Oxşar naxçıvanlı ləhcəsində danışırdı. Bəlkə elə bu amili əsas götürüb məsələni ictimailəşdiribsiniz ki, rezonans böyük olsun...**

- Mənim üçün maklerin hansı ləhçədə danışması elə də böyük rol oynamır. Çünki makler əmrə bağlı adamdır. Ona nə deyiblərsə, həmin tələbi irəli sürür.

**- Axı bu həm də bir regionun güya digər regionun insanlarına antipatiya bəslədiyi qənaətini də hasil edə bilər. Elə deyilmi?**

- Məgər indiyə qədər bu istiqamətdə münasibətlər gərgin olmayıb?

**- Şəxsən biz bunu müşahidə etmirik...**

- Bilirsiniz, biz jurnalist kimi məhz belə problemləri gündəmə gətirməliyik ki, insanlara ayrıseçkiliyə yönəlik amillərə son qoyulsun. Azərbaycanda hələ xanlıqlar dönəmindən kimin haralı olmasına böyük önəm verilib. Mən bu problemi dilə gətirməklə çoxlarının deyə bilmədiyi mövzuya toxunmuşam.

**Görəsən Fuad bəy Moskvada Qarabağlılara öz dediyi kimi pis münasibət olduğunu görəndən sonra niyə Bakıda da Qarabağlılara pis münasibət olduğunu gündəmə gətirmək və araşdırmaqda maraqlı olub?**

***Məhəmmədəli QƏRİBLİ***

# Ermənistanın ABŞ və Rusiya arasında ilyarımlıq ikili oyunu tam iflas pilləsinə yetişdi

**Ermənistanda mövcud hakimiyyətin xarici siyasətdə yol verdiyi yanlışlıqlar indi ABŞ və Rusiya kimi dünya siyasətinin müəyyən edilməsində mühüm rol oynayan ölkələrin İrəvandan üz döndərməsi ilə müşayiət edilməkdədir. Bu vəziyyətdə Nikol Paşinyan iqtidarının eyni vaxtda həm ABŞ-a, həm də Rusiyaya yarınmaq cəhdləri isə Ermənistanı daha çox hədəf halına gətirir.**

Bu gedişlə ABŞ-ın və Rusiyanın Ermənistana qarşı təzyiq siyasəti daha da kəskinləşir.

Belə vəziyyətdə "Qraparak" nəşri yazır ki, Ermənistan müdafiə naziri, Xarici işlər naziri və bəzi səfirlərin iştirakı ilə qapalı müzakirələr keçirilib. Müzakirə mövzusu ABŞ hakimiyyəti tərəfindən mənfi qarşılanan Suriyaya göndərilmiş hərbi heyət olub.

Məlumata görə, ABŞ tərəfi bu günlərdə təkrarən məsələnin Ermənistan-ABŞ münasibətlərinə mənfi təsir etdiyinə dair Ermənistan hakimiyyətinə narazılığını ifadə edib. Müzakirələrin məqsədi yaranmış vəziyyətdən çıxış yolu tapmaq, ABŞ-ın rəğbətini qazanmaq və razı salmaq yollarının axtarışı olub. Erməni ekspert Eduard Abrahamyan qeyd edir ki, bu məsələnin müzakirə edilməsi Moskvanın İrəvana qarşı daha sərt siyasət yürütməsi ilə nəticələnə bilər: "İndiki ABŞ administrasiyası qarşılıqlı münasibətlərdən hansı fayda götürə biləcəyi üzərində siyasət qurduğuna görə Ermənistan ilk növbədə ABŞ-ın maraqlarına cavab verəcək siyasət gündəminin qurulmasını bacarmır. ABŞ-Ermənistan münasibətlərində bizim böhran vəziyyətinə düşməyimizin ən böyük səbəbi Ermənistanın Suriyaya cəlb edilməsidir. Məhz bu mənada Ermənistan ABŞ-da Rusiya ilə münasibətlərdə alt müttəfiq olan ölkə kimi qəbul olunmağa başlayıb. ABŞ Rusiya, İran və Suriyada avtoritar rejim kimi qəbul etdiyi düşmən qüvvələrlə Ermənistanın əməkdaşlığına müsbət yanaşmır. Dünyada nəyin necə dəyişdiyini dərk etmək lazımdır. Əks halda ABŞ tərəfindən institusional problemlərlə üzləşə bilərik. Proqram hazırlanaraq, qoşunların Suriyadan çıxarılması daha doğru addım olardı. Belə olan halda Rusiyanın hansı addımı ata biləcəyi məlum dur".



Digər erməni ekspert David Şahnazarayan bildirir ki, ABŞ-ı məmnun etmək üçün Soros Fondunun adamlarını Ermənistana buraxan Paşinyan bu dəfə həmin şəxsləri zəbt edilmiş Azərbaycan ərazilərinə göndəməyi düşünür: "Həm də ona görə ki, Paşinyanın əsas istəyi inqilabın Qarabağa ixrac edilməsidir. Paşinyan hökumətin ehtiyat fondundan Qarabağda gələn il keçiriləcək "seçki"ləri müşahidə etməsi üçün xarici ölkə qrantları hesabına sorosçu təşkilatları Qarabağa daxil edir. Söhbət Daniel İoannisyanın "Maarifləndirilmiş Vətəndaşlar Birliyi" və "Transperency İnternational" təşkilatlarına hökumətin ehtiyat fondundan ayrılan vəsaitdən gedir. Dəfələrlə demişəm ki, Paşinyanın əsas problemi inqilabın Qarabağa ixrac edilməsidir. O, Qarabağın qeyri-stabilləşməsi üçün cəhdlər edirdi, Bako Saakyanın istefasına nail olmağa çalışırdı. Qeyri-stabilliyə gətirib çıxaran layihələrdən, xüsusilə Samvel Babayanın fəallaşmasından istifadə edirdi. Paşinyan görəndə ki, Qarabağın "hərbi siyasi rəhbərliyi" kifayət qədər möhkəmdir və bütün bunlara yol verməyəcək, o zaman bu cür iş üslubuna keçid etməyə başladı. Yəni qeyd edilən təşkilatların vasitəsilə inqilabın Qarabağa sürüklənməsinə, ixrac edilməsinə cəhd edir. Həmin antikorrupsiya təqibləri məqsədi daşıyan "Transperency İnternational" təşkilatı bu müddət ərzində Paşinyan hakimiyyəti daxilindəki korrupsiya faktları barədə heç bir şey demir". Amma Paşinyanın erməni hərbçilərini Suriyadan çıxarmaq cəhdləri, ABŞ-a bağlı təşkilatlarla yenidən sıx işbirliyi Moskvanı qəzəbləndirəcək addımlar sayılır. Digər tərəfdən, onun Vaşinqtona yarınmaq cəhdləri ABŞ-ın Ermənistana maliyyə yardımını azaltmaq niyyətinin də qarşısını almayıb.

"Qraparak" yazır ki, Paşinyanın Rusiya ilə bağlı yeni gedişləri də ABŞ-ı narazı salmaqda davam edəcək. Nəşr bu xüsusda maraqlı faktlara toxunur: "Baş nazir Nikol Paşinyan sentyabr ayının 3-4 tarixlərində Polşanın Kriniza-Zrduy şəhərində keçiriləcək 29-cu Beynəlxalq İqtisadi Forumunda iştirak etmək üçün Polşaya dəvət edilib. Bununla yanaşı, sentyabr ayının əvvəllərində Polşada İkinci Dünya müharibəsinin 80 illiyinə həsr edilmiş tədbirlərin keçirilməsi də nəzərdə tutulurdu. Lakin Polşa tərəfinin dəvət etdiyi çoxsaylı qonaqlar arasında Rusiya prezidenti Vladimir Putin yer almadığına görə Rusiyadan verilən təlimat əsasında Paşinyan da səfərdən imtina edib. Suveren dövlət hesab edilən Ermənistan baş naziri bu yolla Rusiyanı razı salmağa, rəğbətini qazanmağa çalışıb". "Jamanak" qəzeti isə yazır ki, əslində, Rusiya da Paşinyanın cəhdlərinə rəğmən, ona etibar etmir və təzyiq siyasətini genişləndirir. Bu fonda Moskva gələn ildən Ermənistana satdığı qazın qiymətini 165 dollardan 220 dollara qaldırmağa hazırlaşır. Eyni zamanda, Ermənistana ayrılan hərbi kreditlər məsələsində də Kreml mövqeyini dəyişir:

"Ermənistan Rusiyadan 100 milyon dollar dəyərində dördüncü hərbi kreditin alınması məsələsi ətrafında danışılar aparır. Bu təkcə Ermənistanın müdafiə qabiliyyətinin artırılması yox, eyni zamanda Ermənistanın xarici siyasət oriyentasiyasını dəyişdirməyə hazırlaşmadığını və bunun ən parlaq nümunəsi kimi Rusiyanı hərbi-texniki əməkdaşlığın dərinləşdirilməsi olduğuna əmin etmək üçün hakimiyyətin səylərini əsirgəməməsidir. Ruslar kredit verməyə tələsmir, həm də erməni hakimiyyətinin səmimiyyətinə inanmırlar. Bu səbəbdən münasibətlərdə problem davam edəcək". Bütün bunlardan aydın görünür ki, Ermənistan həm ABŞ, həm də Rusiya cəbhəsində ciddi problemlərlə üzləşib. Paşinyanın bu ölkələrlə bağlı gedişləri isə ciddi şəkildə iflasa uğramaqdadır. Məhz bu vəziyyətdə Ermənistana qarşı adıçəkilən ölkələrin təzyiqlərinin daha da artması gözlənir.

***Tahir TAĞIYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Paşinyanın avantürist Qarabağ bəyanatlarının daxilə hesablandığını ruslar da görməyə başlayır

**Ermənistan rəsmilərinin, o cümlədən baş nazir Nikol Paşinyanın verdiyi açıqlamalar, bunlara paralel olaraq cəbhədə düşmənin artan təxribatları Dağlıq Qarabağ münaqişəsi ətrafında vəziyyəti daha gərgin mərhələyə daxil edir. Belə görünür ki, düşmənə yeni aprel döyüşləri dərsi verilməsə, İrəvan məsələnin dinc müstəvidə həlli istiqamətində müvafiq addımlar atmayacaq.**

Əslində, hərb müstəvisində ordumuz Paşinyana da müvafiq dərs verib. Elə Paşinyanın hakimiyyəti dövründə ordumuzun Naxçıvan və Qazax istiqamətində irəliləməsi bunun ən real təsdiqidir. Amma İrəvanın təxribatları ordunun yenidən dövriyyəyə girməsini də qaçılmaz edir. Buna məhz Ermənistanın özü şərait yaradır. Xüsusən də düşmənin artan cəbhə təxribatlarına indi ordunun daha sərt reaksiya verməsi labüd sayılır. Digər tərəfdən, Ermənistan rəhbərliyinin fəaliyyəti onu göstərir ki, düşmən Qarabağ məsələsində danışıqlar prosesini müxtəlif cəhdlərlə dalana salmaq və status-kvonu saxlamaq niyyətindən geri çəkilmir. Xatırladaq ki, Levon Ter-Petrosyandan tutmuş Ermənistanın bütün prezidentləri, baş nazirləri Qarabağ kartını öz hakimiyyətlərini gücləndirmək, cəmiyyətin fikrini yayındırmaq üçün istifadə ediblər. Görünən budur ki, Nikol Paşinyan da həmin siyasçətə sadiq qalır. Lakin Paşinyan sələfləri ilə müqayisədə daha avantürsit mövqe sərgiləyir. Məsələn, o, hakimiyyətə gələndən sonra "Qarabağ danışıqlarda müstəqil tərəf olmalıdır" tezisini gündəmə gətirdi və danışıqlar prosesinə "yeni don" geyindirmək istədi. Paşinyan anlayırdı ki, Azərbaycan bu tezisi rədd edəcək və məhz rəsmi Bakını danışıqları pozan tərəf kimi göstərmək üçün belə fikri ortaya atmışdı. Bu oyun liderlərin martın 29-da keçirilən Vyana görüşündə alt-üst edildi və İrəvan substantiv danışıqlar aparmağa məcbur edildi. Paşinyanın avqustun 5-də işğal altındakı Xankəndidə "Miatsum" bəyanatı danışıqlar prosesinin pozulması cəhdlərinin məntiqi davamı idi. "Qarabağ Ermənistandır, vəssalam", deyən Paşinyan bununla işğalçı olduqlarını rəsmən etiraf etdi. Doğrudur, xarici işlər naziri Zoqrab Mnatsakanyan "baş nazir mənəvi birləşmədən danışır" deməklə bu etirafa yön verməyə çalışdı, lakin işğalçı ölkə birinci şəxsinin dilindən öz simasını artıq etiraf etmişdi. Belə ki, "Qarabağ Ermənistandır" deməklə Paşinyan özü də bilmədən etiraf etmiş oldu ki, münaqişənin subyektləri yalnız Ermənistan və Azərbaycandır. Bununla dünya bir daha gördü ki, Ermənistan Azərbaycan ərazilərinin anneksiyasını həyata keçirməyə çalışır.

Digər tərəfdən o da faktdır ki, Paşinyan təxribatçı mövqe sərgiləməklə ermənilərin diqqətini dərin sosial-iqtisadi və siyasi xarakterli problemlərdən yayındırmaq istəyir. Verdiyi vədlərin heç birini yerinə yetirə bilməyən Paşinyanın elektoral bazası sürətlə zəifləməkdədir. Çünki

Paşinyanın hakimiyyətə gəldiyi 1,5 il ərzində Ermənistanda yoxsulluğun səviyyəsi 50 faizə qədər qalxıb. Sosial-iqtisadi problemlər dərinləşir, inqilabdan sonra maaşların artırılması gözlənilsə də, hökumət iş yerlərinin ixtisarına başlayıb. Sosial problemlərə, işsizliyə görə keçirilən etiraz aksiyaları polis dəyənəkləri ilə dağıdılır, əhali sürətlə ölkəni tərk edir. "Qraparak" qəzeti vəziyyətin getdikcə ağırlaşdığını, bunların Paşinyan iqtidarı üçün ciddi təhdidlər yaratdığını yazır: "Hətta iş o yerə çatıb ki, Ermənistanın iqtisadiyyat naziri erməni diplomatlarla son görüşdə də ölkə iqtisadiyyatının ağır vəziyyətindən danışıb. İqtisadi vəziyyətdən danışan nazir kədərlənərək diplomatları xaricdən sərmayə axtarmağa çağırıb. Erməni nazir bildirib: "Biz bu gün adambaşına düşən gəlirə görə aparıcı ölkələrdən təxminən 15 dəfə aşağı səviyyədəyik. Məhsuldarlığımız Avropanın hər hansı bir ölkəsinə nisbətən səkkiz dəfə aşağıdır. Avrasiya İqtisadi ölkələrindən isə ən azı iki dəfə. Deməli olar ki, bütün sahələrdə iqtisadiyyat oxşar vəziyyətdədir". Amma bəla bundadır ki, Ermənistana heç kim sərmayə yatırmaq istəmir. Bu prosesdə ölkəyə inamın yoxluğu, Qarabağ münaqişəsinin davam etməsi ciddi rol oynayır". Bu və digər məsələlər artıq Paşinyan üçün ciddi çətinliklərə çevrilib. Bu fonda o, Qarabağ məsələsində sərsəm mövqe sərgiləməklə diqqəti fərqli istiqamətə yönəltməyə çalışır. Bunu Rusiyanın hərbi eksperti İqor Korotçenko da təsdiq edir: "Bu fonda da bəllidir ik, Nikol Paşinyanın Qarabağla bağlı son bəyanatları siyasi avantürizmdir. Bu bəyanatlar ictimaiyyətin diqqətini Paşinyan hakimiyyətinin buraxdığı səhvlərdən yayındırmaq məqsədi daşıyır". Onun sözlərinə görə, Paşinyanın Qarabağla bağlı son bəyanatları onun müvəqqəti məntiqlə hərəkət etdiyini göstərir: "Onun ölkə ictimaiyyəti qarşısında əsas məsuliyyəti iqtisadi rifahı yüksəltməkdir. Paşinyan ölkə iqtisadiyyatını inkişaf etdirməli, maaşları artırmalı, əhalinin yaşayış səviyyəsini yüksəltməli idi. Lakin indiyə kimi o bunu edə bilməyib. Buna görə də ictimaiyyətin diqqətini özünün buraxdığı səhvlərdən yayındırmaq üçün Qarabağ münaqişəsi ilə bağlı hərbi ritorikadan istifadə edir, müharibə şüarları səsləndirir. Paşinyan gözəl başa düşür ki, onu hakimiyyətə gətirən küçə kütləsi eynilə onun hakimiyyətini yıxa da bilər. Onun məntiqi müvəqqəti məntiqdir. Bu cür bəyanatlar verərək vəziyyəti gərginləşdirmək istəyir. Paşinyanın bəyanatları populizmdən başqa bir şey deyil. Fikrimcə, 6 aydan, maksimum 1 ildən sonra onun bu cür populist bəyanatları daha Ermənistan ictimaiyyətinə təsir edə bilməyəcək. Ermənistan cəmiyyəti çörək istəyir, güllə yox. Paşinyan bu cəmiyyətə istədiyi çörəyi verməsə, bu onun sonu olacaq".

Korotçenko Ermənistan siyasi rəhbərliyinin Qarabağla bağlı məsuliyyətsiz bəyanatlarının uzun illərdir aparılan danışıqlar prosesinə də böyük ziyan vurduğunu söyləyib: "Bu, uzaqgörən siyasət deyil. Çünki diplomatik yolla aparılan danışıqları pozur. Gec-tez Ermənistan Azərbaycan torpaqlarından qoşunlarını çıxarmalı olacaq. Heç olmasa, ilkin olaraq ətraf 7 rayonu boşaltmalıdırlar. Doğma yurdlarından, evlərindən qovulan azərbaycanlı əhali Dağlıq Qarabağa qayıtmalıdır. Dağlıq Qarabağın mübahisəsiz Azərbaycan ərazisi hüdudlarında olması şərtilə bu regiona xüsusi status verilməsi mümkündür. Bütün bunlardan sonra Azərbaycan Dağlıq Qarabağa investisiya yatıra bilər. Əminəm ki, Azərbaycanın tərkibində olan Dağlıq Qarabağda yaşayacaq ermənilər Ermənistanda yaşayan ermənilərdən daha yaxşı həyat səviyyəsinə malik olarlar. Fikrimcə, Paşinyan bunu yaxşı başa düşür. Ona görə də, onun səsləndirdiyi bəyanatları siyasi populizm deyil, daha çox siyasi avantürizm adlandırardım". Ekspert vurğulayır ki, belə vəziyyətdə Paşinyanın açıqlamalarına ATƏT-in Minsk Qrupunun sərt reaksiya sərgiləməsi lazımdır: "Anlaşılandır ki, həmsədrlər bu cür bəyanatları rədd edirlər".

Digər ekspertlər də hesab edir ki, artıq söz beynəlxalq ictimaiyyətin, xüsusilə Minsk Qrupunundur. Yəni həmsədrlər işğalçı ölkədən sülh danışıqlarını pozmağın hesabatını tələb etməlidir. Beynəlxalq ictimaiyyət Ermənistanı sülhə məcbur etməli və anneksiya siyasəti yürütdüyünə görə işğalçı ölkəyə sanksiyaların tətbiqini nəzərdən keçirməlidir. Əks halda Azərbaycan hərbi əməliyyatlara start vermək məcburiyyətində qalacaq ki, bunun da məsuliyyəti, yuxarıda qeyd edilənlərdən aydın göründüyü kimi, Ermənistanın üzərinə düşəcək.

Rusiyalı ekspert Oleq Kuznetsov da məsələyə bu prizmadan yanaşaraq bildirir ki, Ermənistan Azərbaycanın hərbi gücünü mütləq mənada nəzərə almalıdır: "Azərbaycan ötən illər ərzində hərbi cəhətdən əhəmiyyətli üstünlüklər əldə edib. Məhz bu durumda Ermənistan rəsmiləri Qarabağ məsələsində veridikləri bəyanatlarda çox ehtiyatlı olmalıdır. Digər tərəfdən, Paşinyanın bəyanatları Azərbaycanın münaqişəni güc yolu ilə həll etmək üçün arqumentlərini və əsaslarını daha da gücləndirəcək. Belə ki, bu bəyanatlar çox açıq şəkildə danışıqlar prosesinin məhz kim tərəfindən sabotaj edildiyini və kimin konstruktiv mövqedə olduğunu göstərir".

Hələlik isə hesab olunur ki, bu gedişlə ordunun yenidən işə qarışması qaçılmaz olacaq. Ölkəmizin iqtisadi qüdrəti və malik olduğu potensial isə ordunun qarşısında qoyulan vəzifəni qısa müddətdə həll edəcəyini tam qətiyyətlə deməyə əsas verir. Burada düşmənə o da yaxşı məlumdur ki, Azərbaycan ordusu bu gün ən müasir standartlara cavab verən texnika ilə təmin edilməkdədir. Silahlı Qüvvələrimizin peşəkar şəxsi heyəti müasir silah və texnika, avtomatlaşdırılmış idarəetmə sistemləri, o cümlədən müasir yaylım atəşli reaktiv sistemləri ilə komplektləşdirilib. Bu isə yaxın və uzaq məsafələrdə yerləşən düşmən hədəflərini böyük bir ərazidə məhv etməyə imkan verir. Bundan başqa, hərbi birləşmələrin zirehli texnikası üzərində modernləşdirmə işlərinin başa çatdırılması nəticəsində ordumuz maksimal uzaqlıqda yerləşən düşmən hədəflərini, hava şəraitindən asılı olmayaraq, gecə və gündüz məhv etmək imkanı əldə edib. Ümumiyyətlə, artıq heç kimə sirr deyil ki, Silahlı Qüvvələrimiz Ermənistanın bütün ərazisində yerləşən hədəfləri məhv etməyə qadirdir.

Azərbaycan öz ordusunu durmadan gücləndirdiyi halda, Ermənistanda bu proses tamamilə əks istiqamətdə cərəyan edir. Məhz bu da mümkün döyüş əməliyyatlarının nəticələri əvvəldən müəyyən etməyə əsas verir. Hesab edilir ki, Ermənistan tərəfi təxribatçı bəyanatlarını davam etdirsə, həmçinin cəbhədə atəşkəs rejimi ilə bağlı razılaşmaları yenə pozsa, Azərbaycan mütləq şəkildə güc variantına əl atacaq. Bu şəraitdə isə Ermənistanın xilası mümkünsüz sayılır.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Azərbaycanda həyata keçirilən iqtisadi islahatlar və onun nəticələri beynəlxalq miqyasda da yüksək qiymətləndirilir. Müxtəlif təşkilatların hazırladığı hesabatlardan belə bəlli olur ki, bu islahatlar Azərbaycanda iqtisadi yüksəlişi daha intensiv hala gətirməkdə, onun ixrac potensialını yüksəltməkdə, xüsusən də qeyri-neft sektorunun inkişafına mühüm təkan verməkdədir.**

# Azərbaycan dünyanın ən güclü ixracatçı ölkələri sırasında - Ermənistan və Gürcüstan siyahıdan çıxarıldı

Bu xüsusda ona da diqqət çəkilir ki, həyata keçirilən işlər Azərbaycanı tədricən ixracatçı ölkəyə çevirir. Bu xüsusda Amerikanın "HowMuch" reytinq agentliyi də ölkəmizdə görülən işləri yüksək qiymətləndirir.

Qeyd edək ki, agentlik dünyanın ən iri ixracatçı ölkələrinin siyahısını dərc edib. Siyahıda Azərbaycanın da adı var. Açıqlanan nəticələrin xidmət sahəsinə deyil, əmtəəyə aid olduğu xüsusi vurğulanır. Analitiklərin sözlərinə görə, ixrac beynəlxalq ticarətin əsas aspektlərindəndir. Dünya ölkələri resurs və əmtəələrini satışa çıxarmaqla iqtisadiyyatlarını möhkəmləndirirlər. Dünya iqtisadiyyatında ixrac üzrə liderlik edən ölkələr sırasında isə, əvvəlki kimi, birinci yerdə Çin gəlir. 2018-ci ildə ölkə 2,5 trilyon dollarlıq əmtəə ixrac edib. ABŞ ikinci yerdədir. Bu ölkə içki və qida da daxil olmaqla ərzaq məhsulları, xam neft, mülki təyyarələr, avtomobil hissələri və sənaye texnikası daxil omaqla 1,7 trilyon dollarlıq məhsul ixrac edib. O da qeyd olunur ki, ABŞ və Çin arasında ticarət müharibəsi davam edir və bu da ümumilikdə dünyanın ixracat sahəsinə ciddi təsir göstərə bilər. Azərbaycanda illik ixrac dövriyyəsinin 22 milyard dollar olduğu qeyd edilir. Minimal ixrac dövriyyəsi olan ölkələr kimi Ermənistan və Gürcüstan isə siyahıdan çıxarılıb. Beləliklə, Cənubi Qafqazdan yalnız Azərbaycanın adı siyahıya daxil edilib. Bütün bu prosesdə isə ölkədə həyata keçirilən iqtisadi islahatların mühüm rol oynadığı danılmazdır.

Təkcə bu ilin altı ayında qazanılan uğurlara nəzər salmaqla buna əmin olmaq olar. Ölkə iqtisadiyyatı bu ilin altı ayında 2,4 faiz, qeyri-neft sektoru 3,2 faiz artıb. Ən böyük göstərici qeyri-neft sənayesindədir. Burada artım 15,7 faizdir. Bu onu göstərir ki, son illərdə sənayeləşmə siyasətimiz mühüm nəticələr verir. Bunu "Moodys" Beynəlxalq Reytinq Agentliyinin yaydığı hesabat da təsdiq edir. Qurum, 2016-cı ildən fərqli olaraq, qeyri-neft ixracının indi sürətlə artdığını, bunun büdcə gəlirlərinə mühüm təsir göstərdiyini bəyan edir: "Hələ neft qiymətinin 2016-cı ildə kəskin ucuzlaşması Azərbaycan manatına da təsirsiz ötüşmədi. Bu təsir nəticəsində manat dollarlaşmış bank sistemində təzyiqlə üzləşdi ki, bu da bank nəzarəti sahəsində islahatların aparılmasına, yeni makroprudensial tədbirlərin hazırlanmasına və qanunvericilik təşəbbüslərinə təkan verdi. Neft gəlirlərinin davamlılığını nəzərə alaraq iqtisadi diversifikasiya məqsədilə Azərbaycan hökuməti təşəbbüsünü yenilədi. 2016-ci ildə Azərbaycandakı durğunluğa baxmayaraq, yaxın zamanlarda qəbul edilmiş maliyyə qaydaları siyasətin proqnozlaşdırılmasını artıracaq, qeyri-neft budcə kəsirini azaldacaq". Ümumiyyətlə, qeyri-neft sektorunun real inkişaf göstəricisi təsdiq edir ki, Azərbaycan bütün sahələrdə dayanıqlı inkişaf yolundadır. Hazırda ölkə yeni texnologiyaların tətbiqinə, iqtisadiyyatın diversifikasiyasına ciddi önəm verir. Ümumilikdə isə bütün bunlar sənayeləşmə siyasətinin çox uğurlu olduğunu təsdiq edən faktlardır. Xüsusən qeyri-neft sektorunda ixracın göstəricilərinin yüksəlməyə başlaması ölkə iqtisadiyyatına daha böyük perspektivlər vəd edir. İndilikdə isə ölkədə həyata keçirilən iqtisadi islahatlarda daxili bazarın yerli məhsulla tam təminatı, ölkədən valyuta axınının qarşısının alınması və makroiqtisadi göstəricilərin stabilliyi hədəf kimi qoyulub. Bütün bunlar nəticələrini verir və Qafqazda Azərbaycanın lider mövqeyini gücləndirir. Yeri gəlmişkən qeyd edək ki, bu prosesdə Azərbaycan düşmən Ermənistanla müqayisədə daha sürətlə önə çıxır. Belə ki, Ermənistanın 2019-cu il büdcəsində 9 faiz, xərclərdə isə 12 faiz artım nəzərdə tutulub. Rəqəmlərlə ifadədə bu, gəlirlərin 3,1 milyard dollar, xərclərin isə 3,4 milyard dollar olması deməkdir. Ermənistanın 2019-cu ildə xarici borcu isə 7 milyard dollardan artıq olmalıdır. Azərbaycan ölkə iqtisadiyyatına cəmi 6 ayda 6,4 milyard manat sərmayə qoymağı planlaşdırıb və onun 5,7 milyard manatı artıq reallaşıb. Yəni faktiki olaraq, Azərbaycanın altı ayda iqtisadiyyata qoyduğu sərmayə Ermənistanın illik gəlirindən iki dəfə çoxdur. Onu da qeyd edək ki, bu ilin ilk altı ayı ərzində valyuta ehtiyatları 4 milyard dollar artaraq 49 milyard dollar təşkil edib! Yəni Azərbaycanın altı ay ərzində valyuta ehtiyatı Ermənistanın illik büdcə gəlirlərindən təqribən 1 milyard dollar çoxdur. Eyni zamanda xarici dövlət borcunun ümumi daxili məhsula nisbəti baxımından da Ermənistan Azərbaycandan çox geridə qalır. Xatırladaq ki, 1 iyul 2019-cu il tarixinə Azərbaycanın xarici dövlət borcu 8 milyard 920 milyon ABŞ dolları və ya 15 milyard 164.1 milyon manat,




xarici dövlət borcunun ümumi daxili məhsula olan nisbəti 19 faiz təşkil edir. Borca hökumətin birbaşa öhdəlikləri və dövlət zəmanətilə cəlb edilmiş kreditlər üzrə şərti öhdəliklər daxil edilib. Ermənistanda isə xarici dövlət borcunun ümumi daxili məhsula olan nisbəti artıq 60 faizə çatır. Qarşıdakı dövr ərzində Azərbaycanın xarici dövlət borcunun azalması, Ermənistanda isə artması proqnozlaşdırılır. Bütün bunlar Azərbaycanın Ermənistanla müqayisədə iqtisadi baxımdan da daha ön mövqedə olacağını aydın nümayiş etdirir. Ən əsası isə, qarşıdakı dövr ərzində Azərbaycan daha böyük ixracatçı ölkəyə çevriləcək.

**Çünki valyuta gəlirlərinin uzunmüddətli dövrdə davamlılığının təmin olunması baxımından ixrac gəlirlərinin artırılması və neftdən asılılığın azaldılması istiqamətində Azərbaycan hökuməti tərəfindən fəal xarici ticarət strategiyası həyata keçirilir. İxracyönümlü istehsal sahələrinə qarşılıqsız maliyyə yardımları, aşağı faizli kreditlər və digər dövləti yardımlar bu prosesə əlavə mühüm təkan verir.**

***Tahir TAĞIYEV***

**Mərkəzi Bank "Tədavülə yararsız milli pul nişanlarının əlamətlərinin müəyyən edilməsi, dəyişdirilməsi və pulların ekspertizası Qaydaları"nı hazırlayıb. Qaydalar hazırda ölkənin maliyyə sektorunun təmsilçiləri və müstəqil ekspertlərlə müzakirə olunur.**

*"Belə hallar bankları hörmətdən salır"*

# Kommersiya banklarının dövlətə qarşı böyük qanunsuzluğu - cırılmış, köhnəlmiş əskinaslar qəbul olunmur...

***Fuad İbrahimov:** "Bankların belə pullardan imtina etməsi qanunsuzdur"*



Yeni qaydalar saxta və həqiqi pulun fərqi, əsginasın yararlı olub-olmaması kimi məsələləri əhatə edir. Həmçinin yeni qaydalarda hansı həddə qədər yararsız olan pulların dəyişdirilməsi, yaxud əvəzinin ödənilməsi məsələsi öz əksini tapacaq.

O da məlumdur ki, cırılmış, yararsız pulların, Mərkəzi Bankla yanaşı, kommersiya banklarına təqdim edilməsi hüquqi baxımdan mümkündür. Ancaq problem ondadır ki, kommersiya bankları bu prosesin iştirakçıları olmaq istəmirlər. Yəni bir sıra hallarda kommersiya bankları vətəndaşlar tərəfindən təqdim olunan köhnəlmiş, yararsız əskinasları qəbul etmirlər. Ancaq qanunvericiliyə uyğun olaraq, Mərkəzi Bank bu əskinasların dəyişdirilməsi, yəni qəbul edilməsi və əvəzləşdirilməsi ilə bağlı birbaşa məsuliyyət daşıyan tərəfdir. Vətəndaşlar bu imkanlardan yararlana bilərlər. Bununla belə, "Bank sistemində pulların ekspertizasının təşkili və aparılması Qaydaları" mövcuddur və bu qaydalar 2005-ci ildə təsdiq edilib. Bu qaydalarda tədavülə yararlı, yararsız pullar məsələsi öz əksini tapıb. Yəni banklar hansı hallarda pulu qəbul etməli və ya qəbul etməməli, hansı hallarda qəbul edib Mərkəzi Banka ekspertizaya göndərməlidirlər. Ancaq kommersiya bankları buna da əməl etmir.

Maraqlıdır, kommersiya bankları niyə qanunvericiliyin əksinə olaraq çırılmış, zədələnmiş pulları götürmür?

Məsələyə münasibət bildirən iqtisadçı-ekspert Fuad İbrahimovun sözlərinə görə, bankların belə pullardan imtina etməsi qanunsuzdur: "İstənilən kommersiya bankı daxili təlimatlara əsasən belə əskinasları qəbul etməli, təftiş apararaq bu vəsaitləri dövriyyədən çıxarıb müvafiq aktla Mərkəzi Banka göndərməlidir. MB bunu əvəzləşdirməklə sözügedən əskinasları ləğv etməlidir. Ancaq bir sıra kommersiya bankları buna vaxt ayırmaq istəmədikləri üçün zədələnmiş pulları qəbul etməkdən imtina edirlər. Çalışırlar belə əskinasları qəbul etməsinlər.

**Aktlaşma prosesi elədir ki, bu zaman gərək müəyyən sayda yararsız pullar yığılsın. Ondan sonra bu aktlaşdırılsın. İstənilən halda, bankların bu cür addımı düzgün deyil. Belə hallar bankları hörmətdən salır. Banklara olan güvəni sarsıdır. Ona görə də banklar buna son qoymalıdır. Çünki bankların bu yanaşması alicənablıqdan uzaqdır ".**

***Vidadi ORDAHALLI***

---

**Son zamanlar sığorta şirkətlərinin fəaliyyəti qənaətbəxş sayılmır. Bunun səbəbi odur ki, bəzi sığorta şirkətlərinin sığorta haqqı toplamasında problemin yaranıb. Məlumatlara görə, Azərbaycanın 22 sığorta şirkətindən 12-si ötən ilin 7 ayı ilə müqayisədə 2019-cu ilin 7 ayı ərzində daha az sığorta haqları toplayıb.**

*"Sığorta haqqını gətirən əsas seqmentlər böyük şirkətlər arasında bölünüb, kiçik risqlər isə fəaliyyət dairəsi nisbətən böyük olmayan şirkətlər arasında bölünüb"*

# 22 sığorta şirkətinin 12-si bərbad gündədir...

***Xəyal Məmmədxanlı:** "Kiçik sığorta şirkətlərinin əksəriyyətində könüllü sığorta sarıdan satış həyata keçirilmədiyi üçün vəziyyətləri ürəkaçan deyil"*




9 sığorta şirkətinin topladığı sığorta haqları artıb, 1 sığorta şirkəti isə bu il fəaliyyətə başladığından müqayisəsi yoxdur. Maliyyə Bazarlarına Nəzarət Palatasının yaydığı məlumatda qeyd olunur ki, "AtaSığorta", "Atəşgah Həyat" Sığorta, "Atəşgah" Sığorta Şirkəti, "AXA MBASK" Sığorta, "Azərbaycan Sənaye Sığorta", "AZSIĞORTA", "Bakı Sığorta", "Günay Sığorta", "Meqa Sığorta", "Paşa Həyat Sığorta", "Qala Həyat" və "Standard Insurance" şirkətlərinin topladığı sığorta haqları azalıb.

Məlumat üçün bildirək ki, ötən ilin 7 ayı ilə müqayisədə 2019-cu ilin 12 ayı ərzində sığorta ödənişləri 10 şirkətdə azalıb, 11-də artıb. 1 sığorta şirkəti isə bu il fəaliyyətə başladığından müqayisəsi yoxdur.

Maraqlıdır, 22 sığorta şirkətindən 12-si sığorta haqqı toplamaqda niyə çətinlik çəkir? Bunun səbəbi nə ilə bağlıdır?

Sığorta eksperti Xəyal Məmmədxanlı "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, sığorta bazarında ən çox sığorta haqqı beş şirkətin payına düşür. Yerdə qalan şirkətlərin əksəriyyəti ümidini icbari sığortaya bağlayıb: "İcbari sığorta elə bir sahədir ki, bütün sığorta şirkətləri bununla məşğul olur. Kiçik sığorta şirkətlərinin əksəriyyətində könüllü sığorta sarıdan satış həyata keçirilmir. Bu səbəbdən həmin şirkətlərdə icbari sığorta həyata keçirilir. Ancaq onu da nəzərə almaq lazımdır ki, icbari sığorta kiçik sığorta şirkətləri üçün zərərlidir. Ona görə də həmin sığorta şirkətlərində zərər qeydə alınır.

Ancaq iri sığorta şirkətləri iri inşaat risqləri olan korporativ sığorta satışını həyata keçirir. Məlumat üçün bildirim ki, sığorta haqqını gətirən əsas seqmentlər böyük şirkətlər arasında bölünüb. Kiçik risqlər isə fəaliyyət dairəsi nisbətən böyük olmayan şirkətlər arasında bölünüb".

***Namiq QULİYEV***

# Adı "Azərbaycan Dövlət Nəzarət Təhlükəsizlik Departamenti", ancaq dövlət təşkilatı olmadıqlarını deyir, rəhbərin isə adını çəkmirlər...

**Sosial şəbəkələrdə paylaşılan bir vizit kart fotosu ciddi müzakirələrə səbəb olub. Üzərində rəsmi dövlət atributlarının əks edildiyi həmin vizit kartda "Azərbaycan Respublikası Dövlət NTD" sözləri yazılıb. Aşağısında isə qurumun tam adı "Dövlət Nəzarət Təhlükəsizlik Departamentinin Bakı Regional Təhlükəsizlik İdarəsi" kimi qeyd edilir.**




Həmin vizit kartının üzərində quruma aid vebsaytın ünvanı da göstərilir. Həmçinin başqa əlaqə nömrələri də qeyd edilib. Sosial şəbəkələrdə əksər istifadəçilər belə adda bir dövlət qurumunun olmadığı qənaətində olduqlarını yazmaqla, bunun dövlət adı və simvolikalarından sui-istifadə edən bir qrup işbazın işi olduğuna dair rəylər yazıblar. Bu səbəbdən sözügedən təşkilatla bağlı bir araşdırma aparmaq qənaətinə gəldik. İlk olaraq qurumun vizit kartının üzərində yazılan saytına daxil olduq. Məlum oldu ki, sözügedən qurum əsasən sahibkarlıq subyektləri ilə işləyir. Həmçinin məlum oldu ki, qurumun hərbiləşdirilmiş formalara bənzəyən xüsusi üniforması da mövcuddur. Hərbiləşdirilmiş ona görə deyirik ki, həmin formada paqon və rütbələr nəzərə çarpır. Vizit kartında olan nömrələrdən birinə zəng edirik. Dəstəyi özünü Sahib Hüseynov kimi təqdim edən bir şəxs qaldırır.

**- Sizin nömrənizi bir vizit kartdan götürmüşük. Siz Azərbaycan Dövlət Nəzarət Təhlükəsizlik Departamenti ad**

## Sahib Hüseynov: *"Xeyr, dövlət qurumu deyil"*

**da olan qurumun təmsilçisiniz?**

- Bəli, mən Bakı regional təşkilatın rəhbəriyəm.

**-Bu, dövlət qurumudu, yoxsa...**

- Xeyr, dövlət qurumu deyil. Vebsaytımıza girsəniz hər bir məlumatla tanış ola bilərsiniz.

**- Elə vebsaytınızla maraqlandığımız üçün bəzi suallar ortaya çıxıb. Dövlət simvolikalarından istifadə etməyiniz qanunidirmi?**

- Biz MMC kimi yaradılan hüquqi şəxsik

**- Əsas fəaliyyət spektriniz nədən ibarətdir?**

- Biz texniki təhlükəsizliklə bağlı işlər görürük.

**- Hansı işləri?**

-Hüquqi və fiziki şəxslər bizimlə müqavilə bağlayır. Biz də onlara xidmət edirik. Xidmətimiz texniki təhlükəsizlik və əməyin təşkili ilə bağlı olur.

**- MMC-nizin adının əvvəlində niyə "Azərbaycan Dövləti" sözü yazılıb? Adətən MMC-lərin adının əvvəlində elə söz yazılmır...**

> *"Necə qeydiyyatdan keçmişiksə, adımız elə də yazılıb"*

- Necə qeydiyyatdan keçmişiksə, adımız elə də yazılıb.

**- Deyəsən, sizin uniformanız da var. Bu necə, qanunidirmi?**

- Bəli, varımızdı. Bizim nizamnaməmiz var. Orda göstərilir ki, təşkilatın uniforması ola bilər. Hamısı nizamnaməyə uyğundur.

**- Fəaliyyətinizi bir qədər də detallı izah etsəniz yaxşı olar...**

- Misal üçün, siz müəyyən fəaliyyətlə məşğulsunuz və 5 işçiniz var. Həmin 5 işçi qanunvericiliklə müəyyən olunmuş qaydada texniki təhlükəsizlik təlimatı almalıdır. Bunu etmirsinizsə, onda qanunu pozmuş olursunuz, Qanunvericilikdə bununla bağlı hətta məsuliyyət də nəzərdə tutulub. Sahibkar da bu məsuliyyətə cəlb olunmasın deyə bizimlə müqavilə bağlayır ki, ona lazım olan xidməti göstərək. Elə sahibkarlar var ki, bu işi özləri təşkil edir. Edə bilməyənlərə biz xidmətimizi təklif edirik.

**- Belə bir səlahiyyətə malik olan dövlət qurumu olmalıdır axı...**

- Bilmirəm, bu barədə nəsə deyə bilmərəm.

**- Neçə ildi fəaliyyət göstərirsiniz?**

- Bizim fəaliyyətimiz MMC kimi 2008-ci ildəndi. Bakı Regional İdarə isə 2019-cu ildən işləyir.

**- Siz ümumi MMC-nin rəhbəriisiniz, yoxsa Bakı regionalın?**

- Mən regionalın rəisiyəm.

**- Bəs ümumi MMC-nin rəhbəri kimdi?**

- Bu barədə nəsə deyə bilmərəm. Mən üzərimə düşən nə varsa, dedim.

**- Sizin vizit kartınızla bağlı aktiv müzakirələr getdiyi üçün marağımızı kəsb etdiniz.**

- Xəbərimiz var, bu bizi narahat etmir. Əksinə, biz özümüz "vizitkalarımız"ı paylayırıq ki, sahibkarların məlumatı olsun. Sizə də dərindən təşəkkür edirik ki, bizimlə əlaqə saxladınız.

***Məhəmmədəli QƏRİBLİ***

# Azərbaycanda şərabın alkoqollu içki sayılmaması təklifi reallaşsa...

## *Sərxoşluq necə müəyyən olunacaq?*



**Azərbaycanda şərabın alkoqollu içki deyil, qida məhsulu hesab edilməsi, onun reklamının genişləndirilməsi təklif edilib.**

"Trend"in məlumatına görə, bu təkliflə "AzQranata" zavodunun direktoru Vüqar Mikayılov Şamaxıda I Üzüm və Şərab Festivalı çərçivəsində təşkil olunan "Azərbaycanda şərab sənayesinin inkişaf perspektivləri və ixrac potensialının inkişafı" adlı dəyirmi masada çıxış edib.

Onun sözlərinə görə, bu gün dövlət qayğısı nəticəsində şərabın ixrac potensialı 30 faiz yüksəlib: "Şərab məhsullarının ixracının artırıla bilməməsi üçün qınaq obyektinə çevrilirik. Amma yaşı 10-dan az olan üzüm bağlarındakı üzümlərin tərkibindəki mikro və makro elementlər tam mənimsənilmədiyi üçün ondan hazırlanan şərab yalnız süfrə şərabı kimi satıla bilər. Mən deyərdim ki, Azərbaycanda süfrə şərabının keyfiyyəti ən pik həddə çatıb. Süfrə şərabı kimi ən keyfiyyətli şərab Azərbaycandadır. Ancaq süfrə şərabının qiyməti 1 dollar 40 sentdən 2 dollara qədərdir. Çox əfsuslar olsun ki, üzüm bağları indiyədək coğrafi göstəricilərinə görə zonalara bölünməyib. Nə qədər ki, bu bölgü olmayıb, biz öz şərablarımızı ucuz satacağıq. Bizim şərablarımızın baha satılması heç də çətin deyil. Bunun üçün dövlət tərəfindən zonaların adları ilə bağlı qərar qəbul edilməlidir. Sonra isə həmin zonadakı şərab zavodlarının mütəxəssisləri bir-birlərinin bağlarını, üzümlərini yoxlamağa gedə bilərlər. Daha sonra isə şərab həmin torpağın coğrafi mənşə adı ilə buraxıla bilər".

Çaxırların da qiymətinin ucuz olması qənaətində olan V.Mikayılov Gürcüstanda olduğu kimi, Azərbaycanda da şərabçılıqla məşğul olan kiçik sahibkarların sayının artmasını vacib sayıb.

Onun sözlərinə görə, Gürcüstanda şərabçılıqla məşğul olan kiçik təsərrüfatların sayı 10 mindən çoxdur. Azərbaycanda isə cəmi 15 zavod var: "Əgər həqiqətən də üzümçülüyü inkişaf etdirmək istəyiriksə, üzümdən hazırlanan məhsulu alkoqollu məhsul kimi deyil, qida məhsulu kimi ortaya qoymalıyıq. Niyə görə Azərbaycanda şərab alkoqollu içki sayılır, qida məhsulu sayılmır? Niyə saat 11-ə qədər şərabları reklam etmək olmaz?".

V.Mikayılov təklif edir ki, digər ölkələrdə olduğu kimi, Azərbaycanda da meşələrdən yığılan meyvələrdən tünd içkilər hazırlamaq olar.

Direktorun fikrincə, bunun hesabına ölkəmizdə 10 minlərlə yeni iş yeri yaradıla bilər.

Şampan şərabları üçün aksizin qaldırılmasını da səhv qərar sayan sahibkar qeyd edib ki, şampan ürək xəstələri olan insanlar üçün ən güclü müalicəvi içkidir.

V.Mikayılov bunu da təklif edib ki, şərab məhsullarının reklamı genişləndirilməli, kiçik təsərrüfatlar yaradılmalıdır.

"Bakı-Xəbər" redaksiyası olaraq qeyd edək ki, maraqlı təklifdir. Lakin ölkənin qanunvericilik sistemində çox ciddi dəyişikliklər yarada bilər. Məsələn, sürücülərin sərxoşluğunun müəyyənləşdirilməsi, sərxoş vəziyyətdə törədilən cinayətlər və sair...

# 2-ci və 11-ci sinif şagirdlərinin də siniflərə qəbulu elektron qaydaya keçirildi... Nə baş verəcək...

***Nadir İsrafilov:** "Yalnız I sinif şagirdlərinin deyil, eyni zamanda II və XI sinif şagirdlərinin də orta məktəblərə qəbulunun, bir məktəbdən digər məktəbə keçirilməsinin elektron qaydada reallaşdırılması bu sahədə şəffaflığın təmin olunmasına xidmət edən amildir"*

**Azərbaycan orta ümumtəhsil sistemində həyata keçirilən son islahatlar bir sıra müsbət yeniliklərin meydana çıxmasına səbəb olub. Təhsil Nazirliyi tərəfindən şagirdlərin bir məktəbdən digər məktəbə yerdəyişməsi, sinifdən-sinfə keçirilməsi qaydalarında dəyişikliklər edilib.**

Qeyd edək ki, bir neçə həftə əvvəl təhsil naziri Ceyhun Bayramov "Şagirdlərin yerdəyişməsi prosesinin elektronlaşdırılması haqqında" əmr imzalayıb. Əmrə əsasən, 2019-2020-ci dərs ilindən etibarən ümumtəhsil məktəbi şagirdlərinin yerdəyişməsi ölkə üzrə elektron sistem vasitəsilə həyata keçirilir.

Bildiyimiz kimi, əvvəlki tədris illərində yalnız I siniflərə qəbul elektron qaydada həyata keçirilirdi, yeni qaydalara əsasən isə II və XI sinif şagirdlərin də bir məktəbdən digər məktəbə keçirilməsi elektron qaydada reallaşdırılıb.

Ekspertlər şagird yerdəyişməsinin elektronlaşdırılmasını müsbət qiymətləndirərək bildirirlər ki, bu proses məktəb və valideyn arasında olan məsafənin azaldılmasına, valideynin təhsil müəssisəsi ilə təmasının daha münasib şəkildə təşkilinə yardım edəcək. Mütəxəssislərin fikrincə, həmçinin prosesin elektronlaşdırılması tədris ili ərzində şagird yerdəyişməsinin hesabatlılığı, statistikası və digər bu kimi məlumatların tez bir zamanda əldə edilməsinə imkan yaradacaq.



*"Bu qaydanın tətbiq edilməsi şagird qəbulu və yerdəyişməsi zamanı mövcud olan bəzi neqativ halların aradan qaldırılmasına səbəb olacaq"*

Tanınmış təhsil mütəxəssisi Nadir İsrafilov "Bakı-Xəbər"ə bildirdi ki, orta ümumtəhsil məktəblərində məktəbə qəbulun və şagird yerdəyişmələrinin elektronlaşdırılması müsbət haldır:"Təhsil sahəsində görülən işlər bir ildə deyil, bir neçə ildən sonra üzə çıxır və bəhrəsini verir... Bir də ki, son illər inkişaf etmiş ölkələrdə demokratiyanı daha da inkişaf etdirən amillərdən biri "Elektron hökumət"in formalaşdırılmasıdır. Ölkəmizdə "Elektron hökumət"in formalaşdırılması Azərbaycan Prezidentinin "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramının (Elektron Azərbaycan)" təsdiq edilməsi haqqında Sərəncamı, "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında " 23 may, 2011-ci il tarixli Fərmanı və digər normativ-hüquqi aktlarla fəaliyyəti üçün hüquqi baza yaradılmışdır. Təhsil sahəsində şagirdlərin yerdəyişməsinin elektronlaşdırılması və bu kimi digər ilkləri də "Elektron hökumət" siyasətinin həyata keçirilməsinə dəstək nümunəsi kimi dəyərləndirmək olar".

N.İsrafilov hesab edir ki, II və XI sinif şagirdlərinin bir məktəbdən digər məktəbə keçirilməsinin elektronlaşdırılması bu sahədə olan qeyri-şəffaflığın qarşısının alınmasına səbəb olacaq. N.İsrafilovun sözlərinə görə, bir sıra hallarda şagird köçürmələri ciddi problemlərlə, bəzi məktəb direktorlarının yaratdığı süni əngəllərlə müşayiət olunurdu. O hesab edir ki, 2019-2020-ci tədris ilindən həyata keçirilən bu prosesin yalnız müsbət tərəfləri var:"İndi texnika əsridir və orta məktəblərə şagird qəbulunun və şagird yerdəyişmələrinin elektron qaydada həyata keçirilməsi bu istiqamətdə müsbət dəyişikliklərə səbəb olacaq. Bilirsiz ki, bəzi hallarda şagirdin bir məktəbdən digər məktəbə keçirilməsi sahəsində bəzi məktəb direktorları tərəfindən süni əngəllər yaradılırdı. Yəni valideyn müraciətlərinə onlar "yer yoxdur" cavabını verir, valideyn və şagirdlərə qarşı haqsızlıq edirdi, onları get-gələ salırdı. Bu problemlər vardı. Əlbəttə, bu da müəyyən hallarda şagirdin təhsildən yayınmasına səbəb olurdu. Yəni şagird sənədlərini məktəbdən alıb gedirdi və yenidən məktəbə qayıtmırdı. Ancaq indi bu proses elektronlaşdırma vasitəsilə mərkəzləşdirilmiş qaydada həyata keçirilməyə başlayıb. Bu da şagirdlərin məktəbdən, təhsildən yayınmasına imkan verməyəcək".

N.İsrafilov həmçinin vurğuladı ki, II və XI sinif şagirdlərinin bir məktəbdən digər məktəbə keçirilməsi məsələsində şagirdin yaşadığı ərazi də nəzərə alınır. O hesab edir ki, elektronlaşdırmada bu məsələyə xüsusi önəm verilir, əvvəlcə ərazidəki şagirdlər məktəbə yerləşdirilir. "Bu gün Azərbaycan təhsilində humanistləşmə, demokratikləşmə prinsipləri həyata keçirilir. Yalnız I sinif şagirdlərinin deyil, eyni zamanda II və XI sinif şagirdlərinin də orta məktəblərə qəbulunun, bir məktəbdən digər məktəbə keçirilməsinin elektron qaydada reallaşdırılması bu sahədə şəffaflığın təmin olunmasına xidmət edən amildir. Bu prosesin elektron qaydada həyata keçirilməsi bütün istiqamətlərdə əhəmiyyətlidir.

**Bu qaydanın tətbiq edilməsi şagird qəbulu və yerdəyişməsi zamanı mövcud olan bəzi neqativ halların aradan qaldırılmasına səbəb olacaq. Qeyd etdiyim kimi, bəzi məktəblər və onların direktorları bu məsələdə süründürməçiliyə yol verirdilər. İndi isə qəbul və yerdəyişmə prosesi yüngülləşəcək"-deyə N.İsrafilov qeyd etdi.**

*Ülviyyə* **NAĞIYEVA**

**Oqtay Rza ilə 1978-ci ilin mart ayının 28-dən dost idim. Onu mənimlə həmkəndlim Seyfəddin müəllim (Seyfəddin müəllim o vaxt APİ-nin biologiya fakültəsinin dosenti idi. O, çoxdandır ki, Almaniyada yaşayır və biologiya elmi sahəsində dünyanın ən görkəmli alimlərindən biridir) tanış eləmişdi.**

# Hamımızın dostu idi Oqtay Rza...

## Oqtay Rzanın xatirəsinə




Seyfəddin müəllim də, mən də Oqtay Rza ilə öz dostluğumuza sadiq qaldıq. Oqtay Rza ilə ömrünün son illərində tez-tez Respublika Mətbuat Mərkəzində görüşərdim. Ölümündən bir neçə gün qabaq da Respublika Mətbuat Mərkəzində görüşdük. 85 illik yubileyi ilə bağlı yazdığı bir ərizədə iki qrammatik səhv getmişdi. O, mənim kompüterdə nəsə yazdırdığımı görüb dedi: "Mirzə, olarmı operator xanım mənim ərizəmdəki bu qrammatik səhvləri düzəltsin? Oxuyub deyərlər Oqtay Rza həm müəllim olub, həm də şairdir. Amma sözləri düz yaza bilmir. Bu mənim üçün böyük nöqsan sayılar". Gülümsəyib dedim: "Oqtay müəllim, hərf səhvləri kiçik nöqsanlardır. Buna dözmək olar. Kaş ki, böyük nöqsanlarımız olmasın". Operator xanım ərizədəki səhvləri düzəldənədək Oqtay müəllimlə xeyli söhbət etdim. Bir-birimizin səhhəti ilə maraqlandıq. Oqtay müəllim ayaqlarındakı və böyrəklərindəki ağrılardan gileyləndi. Sonra dedi: "Sən böyrəyimə yazdığın o dərmanları hələ də almamışam". "Niyə" - deyə soruşdum. Çünki sən yazdığın kağızı itirmişəm" - dedi. Oqtay müəllimin səhhətinə qarşı bu biganəliyinə dözməyərək dedim: "Yaxşı olar ki, siz böyrək həkiminin yanına gedəsiniz, onun dediklərinə də əməl edəsiniz". Osa mənə - "Mənim həkimim də, loğmanım da sənsən". Bu dəfə nə yazsan, ona əməl edəcəyəm" - dedi. Mən həmin böyrək dərmanlarının adlarını kağıza yazıb Oqtay müəllimə verərək dedim: "Bil ki, bu dərmanları içərkən araq içmək olmaz". Oqtay müəllim dedi: "Yanacaq olmadan, dərmanlar fayda verməz. Bir də ki, mənlə araq içən çox dostlarıma da həkimlər araq içməməyi məsləhət vermişdilər. Onlar da həkimlərin sözlərinə əməl edərək araq içməyi tərgitdilər. Amma araq içməyi tərgidən kimi öldülər". Mən gülə-gülə dedim: "Oqtay müəllim, Sizin o dostlarınıza araq içməyin sözlərini mən deməmişəm. Mən bu sözləri Sizə deyirəm". Oqtay müəllim ciddi tövr alaraq dedi: "Eləsə mən araq içə-içə öləcəyəm". "Daha sonrasını özün bilərsən" - deyə köksümü ötürdüm.

Elə həmin gün də Oqtay Rza ilə sağollaşıb rayona getdim. Bir neçə gündən sonra Bakıya qayıtdım. Sabahısı Mətbuat Mərkəzinə gələndə gördüm ki, Mətbuat Mərkəzindəki məlumat lövhəsinə Oqtay Rzanın şəklini vurub, nəsə yazıblar. Elə bildim ki, Oqtay Rzanın 85 illik yubileyi ilə bağlı haradasa ədəbi məclis keçiriləcək. Odur ki, həmin məlumat lövhəsinə diqqətlə baxdım, gördüm ki, Oqtay Rzanın şəklinin üstünə "Allah rəhmət eləsin" sözləri yazılıb. Dost itkisi ağır olduğundan, dünya gözlərimə qaraldı. Bədahətən bu bayatıları söylədim:

*Xoş xəyala daldı, getdi!*
*Oqtay Rza qaldı, getdi!*
*Üz-gözündən nur çiləndi!*
*Söz-söhbəti baldı, getdi!*

*Elə sanman öldü Oqtay,*
*Qansız ölmə güldü Oqtay,*
*Könlü sonsuz kainatdı,*
*Qəlbi qızıl güldü Oqtay!*

*Ulu Tanrıya əyandı,*
*Olumdan ölümə yandı..,*
*Oqtay Rza bölünməmiş,*
*Bölünməz Azərbaycandı!!!*

Həmin gündən başlayaraq əziz dostum Oqtay Rzanın xatirəsinə həsr etdiyim "Biz üç dost idik" əsərimi yazıram. Artıq bu əsərim başa çatmaq üzrədir. İnşallah, onu tezliklə Oqtay Rza sevənlərin diqqətinə çatdıracağam. İndi isə Allahdan Oqtay Rzaya rəhmət, ailəsinə, qohumlarına, dostlarına dözüm, səbr diləyirəm!!!

***Fəzail İsmayıl***
**BÖYÜKKİŞİ**

---

**"Fikrimcə, şəhərimizdə ictimai məqsədlər üçün inşa olunan obyektlər kifayət qədər maraqlı və keyfiyyətlidir. Təəssüf ki, belə qiyməti geniş vüsət alan yaşayış tikintisinə şamil etmək çətindir. Son illər ərzində inşa olunmuş çoxsaylı yaşayış evlərinin bəziləri tam simasız və tam zövqsüzdür".**

***Oqtay Əliyev:*** *"Köhnə binaların fasadında məxsusi qədim memarlıq ənənələrini saxlamaq şərtilə modern sistemdən istifadə etmək olar"*

***Cəfər Qiyasi:*** *"Yaşayış binaları arasında yaxşıları da var, ancaq görkəmi zövqsüz olan binalar çoxluq təşkil edir"*

# Bakıda formaca yaraşıqsız yaşayış binası tikintilərinin çoxalması diqqət çəkməyə başladı...




Bunu Azərbaycan Memarlar İttifaqının İdarə Heyətinin sədri, Respublikanın Əməkdar memarı Elbay Qasımzadə bildirib.

O qeyd edib ki, həmin binaların tikintisinə sərf olunmuş vəsaitdən başqa, burada yaşayan sakinlərə də mənəvi ziyan dəyir: "Memarlıq insanın mənəviyyatına təsir edən sənət növüdür. Onların həyat tərzinə, zövqünə, hətta tərbiyəsinə belə təsiri var. Bu simasız binaların orada yaşayıb böyüyən gənclərimizin tərbiyəsinə necə təsiri olacağını düşünəndə məyus oluram. Bunun bir neçə ciddi səbəbi var. İlkin səbəbi, əlbəttə, layihələri hazırlayan memarların kəmsavadlığı və yaxud biganəliyidir. Hər ikisi xalqa, sənətə xəyanət kimi qiymətləndirilə bilər".

Doğrudan da, bu gün yaşayış evlərinin əksəriyyətinin görkəmi zövq oxşayıcı durumda deyil. Binaların xarici görkəmi necə gəldi boyanaraq sakinlərin istifadəsinə verilib.

Tanınmış memar, memarlıq doktoru, AMEA-nın müxbir üzvü, professor Cəfər Qiyasi "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, paytaxt ərazisində olan yaşayış binalarının əksəriyyətinin siması xoşagələn deyil: "Yaşayış binaları arasında yaxşıları da var, ancaq görkəmi zövqsüz olan binalar çoxluq təşkil edir. Bu sahədə mövcud vəziyyəti dəyişmək üçün müəyyən işlər görmək lazımdır. Elə binalar var ki, orada memarlar işləməklə həmin infastrukturun görkəmini daha cazibədar edə bilərlər".

Tanınmış rəssam, dizayner Oqtay Əliyev "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, bu gün paytaxt ərazisində mövcud olan binaların əksəriyyətinin görkəmi bir mütəxəssis kimi onu da qane etmir: "Etiraf edək ki, bəzi binaların vizual görkəmi standarta uyğundur, bəziləri isə yox. Köhnə binaların fasadında məxsusi qədim memarlıq ənənələrini saxlamaq şərtilə modern sistemdən istifadə etmək olar. Bu gün əsasən qədim ənənə ilə müasirliyi sintez etmək lazımdır. Buna çox ehtiyac var. Ümumiyyətlə, binaların fasadları üzərində işlər aparılarkən diqqətli olmaq lazımdır".

**Həmsöhbətimizin sözlərinə görə, şəhərdə olan çoxmərtəbəli binaların fasadı mütəmadi olaraq dəyişdirilir. Dəyişdirilən fasadlar əsasən ya rənglənir, ya da üzlənir. Fasadlar bəzən elə rəngə boyanır ki, həmin binanın görkəmi itir. Beləliklə, tünd və ya xoşagəlməz üzlüklər estetik baxımdan şəhərin görkəminə xələl gətirir".**

***Günel CƏLİLOVA***

**Sosial şəbəkələrdə bütün peşə və sənət sahiblərinin fəaliyyətini yaxından izləmək mümkündür. Bu gün istənilən sahənin adamını Facebook, İnstaqram, Odnoklasnik və digər sosial şəbəkələrdə görə bilirik. Sosial şəbəkələrdə geniş meydan açan və burada müxtəlif qorxulu rituallar, ayinlər həyata keçirən cadugərlər, falçılar da kifayət qədər aktivdilər.**

# "Milli cadugərlərimiz"in sosial şəbəkələrdə "çıxarmadıqları oyun" qalmır

***Könül Vaqifqızı:** "Burada elə qorxulu rituallar həyata keçirilir ki, adam vahimələnməyə bilmir"*

Bu platformada cadugərlər, ekstrasenslər, falçılar müxtəlif səhifə və qruplar yaradaraq öz əməllərini icra edirlər.

Məsələn, Facebookda "Abra Cadabra" adlı bir qrup var və bu qrupun da əsas üzvləri müxtəlif yaş qrupunda olan qadınlardır. Qadınlar onları narahat edən məsələlərlə, xüsusən də ailədaxili problərinin həll edilməsi yolları ilə bağlı həmin qrupda təmsil olunan cadugərlərdən, falçılardan "mədət" umurlar. Qrupda açıq şəkildə bildirilir ki, burada təmsil olunan cadugərlər ən ağılagəlməz vasitələrlə müxtəlif qorxulu rituallar həyata keçirirlər. Hətta onlar qara magiya ilə məşğul olduqlarını, bu yolla istənilən adamı cadulaldıqlarını da qeyd edirlər. Bu ritualların həyata keçirilməsi prosesini əks etdirən foto və videolar da qrupda yerləşdirilir və elan edilir ki, psixoloji vəziyyəti normal olmayan insanlar bu ritualları izləməsin.

Burada ay bədrlənərkən insanda "üçüncü göz"ün (?) açılması üçün bir ritual haqqında məlumat verilir, sonra qara magiyanı tətbiq etmək üsulları öyrədilir və s.

Əlbəttə, bütün bunlar qara qüvvələrin təbliğinə, qara niyyətlərin yayılmasına yönəlib.

Qadınlar cadugərlərdən əsasən gənc və yaraşıqlı oğlanları, başqasının ərini onlara "bağla"ması üçün kömək istəyirlər. Qruplarda yazırlar ki, bir kişidən xoşum gəlir, amma o mənə baxmır, onu özümə cəlb etmək üçün cadu etdirmək istəyirəm. Başqa birisi qeyd edir ki, ərimi evə bağlaya bilmirəm, mənə əhəmiyyət vermir, bütün gününü dostları ilə çayxanalarda keçirir, evə səhərə yaxın gəlir, onu evə bağlamaq üçün mənə "şirinlik" duası yazın. Digər bir qadın isə qaynanasına, baldızına, ərinin qohumlarına cadu etdirmək istəyir. Cadugərlər də həmin xanımlara internet vasitəsilə "məsləhət"lər verir, cadu yazdırmaları üçün onları fəaliyyət göstərdiyi yerə dəvət edir. Bəziləri evini cadulardan təmizləmək üçün cadugərlərə üz tutur, bəziləri isə varlanmaq, var dövlətə çatmaq üçün. Onu da deyək ki, bu qruplarda cadugərlərə müraciət edənlər sırasında 15-18 yaşlı qızlar da az deyil. Bu qızlar "sevgili"ləri ilə barışığa nail olmaq üçün cadugərə üz tuturlar. Cadugərlər də onların arzularını "çin etmək" istiqamətində fəaliyyətə keçirlər. Cadugərlərin ağlasığmaz hərəkətləri, həyata keçirdikləri rituallar, qara qüvvələrlə "mistik" əlaqəyə girərək insanları cadulaması həqiqətən də dəhşətdir. Bir sözlə, cadugərlər sosial şəbəkələrdə əməlli-başlı dəm-dəstgah açıb insanların "dərdinə çarə" tapırlar.

Psixoloq Könül Vaqifqızı bizimlə söhbətində bildirdi ki, sosial şəbəkələrdə cadugər və falçıların aktivləşməsi olduqca mənfi tendensiyadır. Cadugərlərin etdiyi qara magiyanın onların bu xidmətindən istifadə edən insanlara faciələr yaşatdığını deyən K.Vaqifqızı hesab edir ki, qadınlar cadugərlərə, falçılara deyil, özlərinə güvənməlidir. Dinimizin də birmənalı olaraq qəbul etmədiyi cadugərliyin az qala bir "dini ayin" kimi təqdim edilməsinin də yolverilməz olduğunu bildirən ekspert hesab edir ki, falçı və cadugərlərin sosial şəbəkələrdəki profil, səhifə və qrupları ciddi nəzarət altına alınmalıdır. "XXI əsrdə yaşamağımıza baxmayaraq, hələ də qadınların, qızların xeyli bir qismi cadugərə, falçıya, ekstrasensə inanır. Bu da cadugərlərin qol-qanad açmasına, öz fəaliyyətlərini daha da geniş qurmasına imkan verir. Əvvəllər bir falçının, cadugərin yanına getmək üçün qadınlar "əziyyət" çəkirdilər, indi isə sosial şəbəkələr vasitəsilə onlar qadınların evlərinə, həyatlarına daxil olublar. Sosial şəbəkələrdə falçı və cadugərlərin yaratdıqları səhifə və qrupların bəzilərini təsadüfən izləmişəm və dəhşətə gəlmişəm. Burada elə qorxulu rituallar həyata keçirilir ki, adam vahimələnməyə bilmir. Cadugərlər sosial şəbəkələrdə "qara magiya"nın gücü ilə ailələri dağıdır, insanların psixikasına mənfi təsir edirlər. Burada onların insan şüurunda gərginlik yaratmasından, onlara psixoloji təsir etməsindən söhbət gedir. Bəli, qrup və səhifələrdə elə ritualların videogörüntüləri yayılır ki, həqiqətən də ona qorxusuz tamaşa edə bilmirsən".



*"Cadugərlər sosial şəbəkələrdə "qara magiya"nın gücü ilə ailələri dağıdır, insanların psixikasına mənfi təsir edirlər"*

K.Vaqifqızının sözlərinə görə, hər hansı bir çətinliyi olan xanımlar cadugər və falçılara deyil, psixoloqlara müraciət etsələr, öz problemlərinin həllinə daha tez nail ola bilərlər. Onun dediyinə görə, qadınlar psixoloqlardan qaçıb falçılara, cadugərlərə "sığınır"lar. "Sosial şəbəkələrin azad olmasından istifadə edən cadugər və falçılar şirin vədlərlə qadınları özlərinə cəlb edərək onlara "məsləhət"lər verirlər.

Əslində isə onların "məsləhət"lərinin o qadınlara heç bir faydası dəymir, həm pulları gedir, həm də əsəbləri korlanır. Problemi olan qadınlar falçıya, cadugərə yox, psixoloqa, mütəxəssisə müraciət etsə daha yaxşı olar. Amma onlar falçılardan "kömək" umurlar"- deyə o qeyd etdi.

***Ülviyyə NAĞIYEVA***

№ 153 (4051) ■ Qiymәti: 40 qәpik

# BAKI XƏBƏR

31-2 AVQUST-SENTYABR 2019-cu il

www.baki-xeber.com



## "Azercell" Eksklüziv indi Goranboyda

*"Azercell Telekom" MMC Goranboy şәhәrindә yeni Eksklüziv mağazasını istifadәyә tәqdim edib*

**Abunәçilәrinә әn qabaqcıl müştәri tәcrübәsi yaşatmağı hәdәflәyәn ölkәnin telekommunikasiya bazarının lideri "Azercell Telekom" MMC yeni konsepsiyalı Eksklüziv mağazalarını ölkә boyu genişlәndirmәyә davam edir.**

Bu dәfә AzercellGoranboy şәhәri, Heydәr Əliyev prospekti 10 ünvanında yerlәşәn yeni Eksklüziv mağazasını abunәçilәrinin istifadәsinә tәqdim edib. Bu münasibәtlә әlaqәdar şirkәt yeni mağazanın müştәrilәrini xüsusi kampaniya ilә sevindirir. Belә ki, avqust ayının 27-dәn etibarәn 7 gün әrzindә, Goranboy Eksklüziv mağazasından smartfon alan hәr kәs 150 AZN-dәk hәdiyyә balansı әldә edәcәk.

"Azercell"in yeni Eksklüziv mağazası әn müasir avadanlıqla tәchiz olunaraq, Nordik konsepsiyasına uyğun şәkildә tәşkil edilib.

Bu mağazalarda abunәçilәr әn son texnoloji yeniliklәri dәstәklәyәn mәhsulları sınaqdan keçirә vә müqayisә edә bilәrlәr.

Peşәkar satıcılar müştәrilәrә düzgün seçim etmәk, xidmәtlәri aktivlәşdirmәk vә digәr mәsәlәlәrdә yardım edir.

Hәmçinin mağazada mobil texnologiyaları dәstәklәyәn müxtәlif aksessuarlar, cihazlar, kredit vә ya nağd şәkildә mobil telefonlarәldә etmәk mümkündür.

Goranboy Eksklüziv mağazası, Bazar ertәsi - Şәnbә 09:00 - 20:00 (fasilәsiz), Bazar günü 09:00 - 19:00 (fasilәsiz) abunәçilәrә xidmәt göstәrir. Belәliklә, ölkә boyunca artıq 23 Azercell Eksklüziv mağazası fәaliyyәt göstәrir.

Daha әtraflı mәlumat üçün news@mcs.az ünvanına müraciәt edә bilәrsiniz.

## Elan

Qasımov Fәxrәddin Mirzәmәmmәd oğluna Azәrbaycan Respublikası Daxili İşlәr Nazirliyi tәrәfindәn verilmiş müharibә veteranı vәsiqәsi itdiyi üçün etibarsız sayılır. (Şәxsiyyәt vәsiqәsi AZE №17883763, ASAN 4)

Qәdirov Əmrulla Əbdülhәsәn oğluna mәxsus Bakı şәhәr, Xәzәr rayonu, Şüvәlan qәsәbәsi, Vidadi küçәsi, dalan 2, ev 17 ünvanının qeydiyyat vәsiqәsi (çıxarış) vәsiqәsi itdiyi üçün etibarsız sayılır.

İsmayılova Aidә İsa qızının Bakı şәhәr Nizami rayonu R.Rüstәmov küçәsi ev 39, m 3 ünvanın seriya nömrәsi NC 135389 nömrәli qeydiyyat vәsiqәsi itdiyi üçün etibarsız sayılır.




## "Nar" bölgәlәri yüksәkkeyfiyyәtli internetlә tәmin etmәyә davam edir

**Hәr bir abunәçisini keyfiyyәtli şәbәkә vә mobil internetlә tәmin etmәyi hәdәflәyәn "Nar", Azәrbaycanın bölgәlәrindә dә mobil şәbәkәsini genişlәndirmәkdәdir. Artıq әn ucqar kәndlәrdә belә "Nar"ın mobil rabitә xidmәtlәrindәn istifadә etmәk mümkündür.**

Mobil operator son bu il әrzindә regionlarda 460 4G LTE texnologiyalı baza stansiyası quraşdırıb. "Nar"ın 4G baza stansiyalarının tәqdim etdiyi yüksәkkeyfiyyәtli mobil internet xidmәti nәticәsindә 4G internetinin trafik hәcmi ötәn ilin eyni dövrü ilә müqayisәdә 63% artıb. 4G internetindәn istifadә edәnlәrin artımı Bakı üzrә 89%, regionlar üzrә isә 116% tәşkil edir.

Mobil operator şәbәkәsinin keyfiyyәtilә yanaşı, rabitә xidmәtlәrinin hәr kәs üçün әlçatan olmasını hәdәflәyib. "Nar" bölgәlәrdә yaşayan әhali üçün tәklif etdiyi sәrfәli "Yerlim" tarifi abunәçilәr tәrәfindәn xüsusi qiymәtlәndirilir. Belә ki, son 1 il әrzindә tarifә qoşulanların sayı 15% artıb. Artıq yarım milyondan çox abunәçi "Nar"ın "Yerlim" tarifindәn istifadә edir.

Qeyd edәk ki, "Yerlim" tarifilә abunәçilәr eyni bölgәdә yaşayan doğmaları, dostları, bir sözlә, bütün yerlilәri ilә dәqiqәsi 1 qәpikdәn danışa bilәrlәr. Tarifә qoşulmaq üçün "Yerlim" yazıb 777 qısa nömrәsinә mesaj göndәrmәk vә ya *777#303#YES kodunu yığmaq lazımdır.

Tarif haqqında әtraflı mәlumatı https://www.nar.az/yerlim internet sәhifәsindәn әldә edә bilәrsiniz.

"Azerfon" şirkәti ("Nar" ticarәt nişanı) 21 mart 2007-ci ildә fәaliyyәtә başlayaraq qısa bir müddәtdә Azәrbaycanda telekommunikasiya vә mobil rabitә sahәsinin aparıcı şirkәtlәrindәn birinә çevrilib. "Nar" ticarәt nişanı Azәrbaycanın zәngin mәdәni vә tarixi irsinin çağdaş hәyatla bağlılığının rәmzi olaraq seçilib. "Nar" ölkәdә ilk dәfә olaraq 3G texnologiyasını tәqdim edib vә geniş 4G şәbәkәsini abunәçilәrinin istifadәsinә verib.

Nar" şәbәkәsi hazırda ölkә әrazisinin 97,5 %-ni (işğal olunmuş әrazilәr istisna olmaqla) әhatә edir vә 8000-dәn artıq baza stansiyası ilә 2,3 milyondan çox abunәçiyә yüksәkkeyfiyyәtli xidmәt göstәrir. 2017-ci ildә keçirilmiş mobil rabitә şәbәkәlәrinin müqayisәli testlәrinә әsasәn "Nar" şәbәkәsi mobil zәng xidmәtlәrinin göstәrilmәsi üzrә ölkәdә әn yüksәk nәticәyә nail olub.

Sınaqları test xidmәtlәri üzrә müstәqil beynәlxalq şirkәt olan "P3 Communications" keçirib vә sınaq metodologiyası әhatәli xidmәtlәr üzrә müştәri tәcrübәsinә әsaslanıb.

## "Nar" abunәçilәrinin nәzәrinә!

**13.09.2019 tarixindәn etibarәn "Nar Wi-Fi" paketlәrindә dәyişikliklәr edilәcәk.**

Daha әtraflı mәlumatı https://www.nar.az/nar-wi-fi/ sәhifәsindәn әldә edә bilәrsiniz".





**Qoç** - Bu gün özünüz dә hiss etmәdәn emosiyalarınızın qurbanına çevrilә bilәrsiniz. Əks cinsin mәnsubu ağlınızı başınızdan alması. Hisslәr sizin soyuqqanlı davranışınızı pozaraq arzuolunmaz hәrәkәtlәrә vadar edә bilәr.



**Buğa** - Bu gün bir qәdәr xaotik tәsir bağışlasa da, irәliyә doğru hәrәkәtdә müvazinәti itirmәyin. Çәtinliklәr yaranacaq, amma düşünün: bu problemlәrin mövcudluq sәbәblәri arasında sizin konkret hәrәkәtiniz yoxdur.



**Əkizlәr** - Yaşam vә iş taktikatınızın dәyişdirilmәsinin vaxtı çatıb. Bәdbin fikirlәri unudun, nikbin davranın. Yaşananlar, baş verәnlәrdәn faydalanmağa çalışın. Ötәnlәrdәn bәri gәlәn arzular vә istәklәr daha tәhlükәli ola bilәr.



**Xәrçәng** - Bilik vә bacarıqlarınız bu gün diqqәtdәn kәnarda qalmayacaq. İşdә rәhbәrlik mәhz bacarığınıza görә sizә yeni tapşırıq verә bilәr. Günün ilk yarısında tanışların vә dostların yardımına bel bağlaya bilәrsiniz.



**Şir** - Ailә ilә bağlı mәsәlәlәr bu gun ön plana keçәcәk. Onların arasında ciddi problemin ola bilәcәyi dә istisna deyil. Qısqanclıq vә ya psixoloji asılılığın çox pis mәziyyәt olduğunu unutmayın.



**Qız** - Yaşayış yeri, qohumluq әlaqәlәri, qeydiyyat, mәişәtin nizama salınması ilә bağlı mәsәlәlәr xüsusi әhәmiyyәt kәsb edәcәk. Tәhsil vә biliklә bağlı mәsәlәlәrin hәllindә tәnbәllik etmәyin.



**Tәrәzi** - Maddi durumunuz yaxşılaşa bilәr. Maliyyә vәziyyәtinizin sәviyyәsini artırmaq vә bәzi problemlәri hәll etmәk üçün şanslı gündür. Hәmin tәklifi dәyәrlәndirin, mәnfi vә müsbәt yönlәrini nәzәrdәn keçirin.



**Əqrәb** - Bu gün zahirәn üzüyumşaq olun, әsl diplomat tәki davranın. Stil, zövq vә intusiya sahibi olduğunuzu nümayiş etdirin. Bütün bunlar yaxın perspektivdәki mәqsәdinizә çatmağa sizә yardım edә bilәr.



**Oxatan** - Bu gün bütün istәk vә arzularınızı reallaşdırmağa çalışacaqsınız. Fiziki qüvvәniz, yaxud da biliklәriniz vә intellektual qabiliyyәtlәrinizi nümayiş etdirmәk istәyirsinizsә, bu niyyәtinizi tәxirә salın.



**Oğlaq** - Bu gün yaşanacaq hadisәlәrin zahiri görüntüsünә aldanmayın, yaşananların mahiyyәtinә varmağa çalışın. Zahirәn buz dağına bәnzәyib içәridә yanıb qovrulmayın. Tәmkinli, ehtiyatlı, sayıq olun.



**Dolça** - Qarşınıza qoyduğunuz mәqsәdә çatmaq üçün maliyyә mәsәlәlәrinә aydınlıq gәtirin, mövcud problemlәri dәrhal, tәxirә salmadan, tәcili şәkildә çözün. Yaxın әtrafınızdakı insanlar, dostlar vә ya iş yoldaşınız yardım etmәyә can atsalar, imtina etmәyin.



**Balıqlar** - Bu gün istәnilәn әksliklәr vә ziddiyyәtlәr yumşalacaq, qarşıdurmalar xәfif mübahisәlәrә çevrilәcәk. Ən uzaq mәqsәd vә xәyallarınızdakı hәdәf real obyekt tәsiri bağışlayacaq.

*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*



## Ayı evә daxil oldu vә soyuducudakı dondurmanı yedi

**ABŞ-ın Kaliforniya ştatında ayı yaşayış evinә daxil olub.**

"Trend" xәbәr verir ki, mәtbәxә daxil olan ayı soyuducunu açıb oradan bir neçә parça әt, dondurma vә krekerlәr götürüb. Bu mәhsullarla qonaq otağına keçәn ayı bunları yemәyә başlayıb. Hәmin an otaqda olan iki yeniyetmә xilasetmә xidmәtinә zәng edib. Bir neçә dәqiqә sonra hadisә yerinә gәlәn xilasedicilәr ayını yatızdıraraq oradan uzaqlaşdırıb.

***Hazırladı: Ramil QULİYEV***

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qәzet hәftәdә 5 dәfә çıxır. (Bazar vә bazar ertәsindәn başqa). «BZ»-dә çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.

Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.